# Xalq qəzeti

Xalqın qəzeti!

№ 144 (30260) 13 iyul 2023-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az


**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Qayıdış proqramı ardıcıllıqla aparılır və beləliklə, ilin sonuna qədər bizim artıq 5 yaşayış məntəqəmizdə – 1 şəhər və 4 kəndimizdə vətəndaşlar öz dədə-baba torpaqlarında tam məskunlaşacaqlar. Proqramın birinci mərhələsində 100 yaşayış məntəqəsinin yenidən qurulması nəzərdə tutulur.**

## Azərbaycan–Türkiyə dostluq və qardaşlığı uğurla inkişaf edir



**İyulun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuşu qəbul edib.**

Numan Kurtulmuş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı Türkiyədə keçirilmiş prezident və parlament seçkilərində qələbə münasibətilə bir daha təbriklərini çatdırdı.

Görüşdə Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən parlamentlərarası sahədə uğurla inkişaf etdiyi məmnunluqla vurğulandı. Numan Kurtulmuşun səfərinin əlaqələrimizin inkişafına töhfə verəcəyi qeyd olundu.

Söhbət zamanı Türk Dövlətləri Təşkilatının daha da gücləndirilməsinin, təşkilat və TÜRKPA formatında əməkdaşlığın möhkəmləndirilməsinin vacibliyi vurğulandı.

**AZƏRTAC**

## Ermənistana həm xəbərdarlıq, həm də şans

*Yaxud dövlət başçımızın müşavirədəki çıxışında əminlik, qətiyyət və prinsipiallıq motivləri*

**Azərbaycan Prezidenti İlham Əliyev 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədəki çıxışında ölkəmizin Ermənistanla münasibətlərindən, o cümlədən sülh prosesindən söz açdı. Dövlətimizin başçısı müxtəlif məsələlərdən geniş bəhs etdiyi çıxışında maraqlı məqamlara toxundu.**

Dövlətimizin başçısı kifayət qədər həssas məqamlardan bəhs etdi. Dünyadakı davranış qaydalarının tamamilə pozulduğunu, beynəlxalq hüquqa əməl edilmədiyini dilə gətirdi.

Hesab edirik ki, bu mövzuda danışmağa ən çox haqqı çatan məhz Azərbaycan lideridir. Çünki ölkəmiz uzun müddət beynəlxalq hüquq normalarının işləməməsindən, onların saya salınmamasından əziyyət çəkib. Bunun nəticəsində otuz ilə yaxın müddətdə torpaqlarının iyirmi faizi işğalda qalıb, bir milyondan çox vətəndaşı qaçqın və məcburi köçkün həyatı yaşamağa məcbur olub.



Nəzərə alaq ki, Azərbaycan beynəlxalq hüququ güc yolu ilə bərpa etmiş ölkədir. Bu mənada yaşadığımız XXI yüzilliyin örnək xalqı da bizik. Heç şübhəsiz, üzərindən illər, onilliklər keçdikdən sonra 44 günlük Vətən müharibəsində qazandığımız Zəfər məhz bu baxımdan da xatırlanacaq, tarixdə yaşayacaqdır.

**(ardı 9-cu səhifədə)**

## İlin ilk yarısında sosial-iqtisadi islahatlar uğurla icra olunub



Səhifə ⇨ 7

## TAP-ın Avropada bazarı genişlənir




Səhifə ⇨ 7



## Ölkəmizdə ixrac idxalı ikiqat üstələyir

Səhifə ⇨ 7

## Dünya xaos dəllallarına “Yox!” deməyi bacarmalıdır



Səhifə ⇨ 6

## Təkrar edirik: Qarabağ Azərbaycanın daxili işidir!



Səhifə ⇨ 9

## Abu-Dabi iddia, Tehran etiraz edir



Səhifə ⇨ 8

## Natəvanın “Gül dəftəri” “Dünya yaddaşı”na daxil edildi




Səhifə ⇨ 10

## Özü vəzir, sözü şah olan Vaqifin kimlik portreti

Səhifə ⇨ 10

## Türkiyə yeni “F-16”lar alacaqmı?




Səhifə ⇨ 10



## İrəvanın ekocinayətləri Paşinyan rejiminin gerçək simasını üzə çıxarır

Səhifə ⇨ 9

## Ukraynalı hərbçilərin qaytarılması Rusiya–Türkiyə münasibətlərinə necə təsir göstərəcək?



Səhifə ⇨ 10

## MOK-da Olimpiya Festivalı iştirakçıları ilə görüş keçirilib

Səhifə ⇨ 11

# Milli təbiət elminin yaşıl laboratoriyası

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Mərkəzi Nəbatat Bağında aparılan işlərlə tanış olublar







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyulun 12-də Bakıda Mərkəzi Nəbatat Bağının ərazisində aparılan abadlıq, yenidənqurma və tikinti işlərinin gedişi ilə tanış olublar.**

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına və birinci xanıma Mərkəzi Nəbatat Bağında həyata keçirilən yenidənqurma və tikinti işləri barədə məlumat verdi.

Bildirildi ki, yenidənqurma və bərpa işləri nəticəsində Mərkəzi Nəbatat Bağının ərazisi 39 hektardan 44,8 hektara çatdırılıb. Vaxtilə ərazidə yerləşən avtomobil təmiri boksları, bir neçə ictimai-iaşə obyekti və müxtəlif təyinatlı qanunsuz tikililər sökülüb. Hazırda bağın ərazisində yeni, müasir layihəyə əsasən geniş bərpa və yenidənqurma işləri müvəffəqiyyətlə davam edir. Layihəyə əsasən bağda müxtəlif növ yeni ağacların əkilməsi, müasir dizaynlı guşələrin yaradılması nəzərdə tutulur.

Qeyd edək ki, Mərkəzi Nəbatat Bağında aparılan yenidənqurma işləri Azərbaycan Prezidentinin müvafiq sərəncamlarına uyğun olaraq həyata keçirilir.

Azərbaycan florasında mövcud olan bitki növlərinin və genofondunun qorunması məqsədilə 1934-cü ildə yaradılan bu bağ elmi-tədqiqat müəssisəsi kimi fəaliyyət göstərib. Nəbatat Bağında 2 min 500-dən çox ağac, kol, ot bitkiləri və sair var. Bağda 130-a yaxın nadir bitki növü qorunur. Ötən il Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq Qərarı ilə "Mərkəzi Nəbatat Bağı" publik hüquqi şəxs Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyinə verilib.

Mərkəzi Nəbatat Bağında görülən işlərlə yaxından tanış olan Prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi.

Xatırladaq ki, son illər Azərbaycanın bütün regionlarında, o cümlədən Bakı şəhərində abadlıq və yenidənqurma işləri geniş vüsət alıb. Əhalinin rahatlığının və istirahətinin yüksək səviyyədə təşkili məqsədilə yeni parklar və çoxsaylı yaşıllıq zolaqları salınır, mövcud park və xiyabanlar isə əsaslı şəkildə yenidən qurulur. Həyata keçirilən bu layihələr Bakının və regionların simasını dəyişməklə yanaşı, ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılmasında da mühüm rol oynayır. Aparılan yaşıllaşdırma işlərinə və ekoloji vəziyyətin yaxşılaşdırılması üçün dövlət səviyyəsində həyata keçirilən layihələrə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da böyük dəstək verir.

***AZƏRTAC***

# Baş nazir TBMM-in sədri ilə görüşüb



**İyulun 12-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuşla görüşüb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, görüş zamanı 2023-cü ilin hər iki ölkə üçün xüsusilə əlamətdar olduğu bildirilərək cari ildə həm Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin, həm də Türkiyə Cümhuriyyətinin yaradılmasının 100 illiyinin qeyd olunduğu vurğulanıb.

Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin "Bir millət, iki dövlət" prinsipinə uyğun olaraq bütün sahələrdə uğurla inkişaf etdiyi bildirilib.

İki ölkə arasında əlaqələrin dövlət başçılarının səyləri nəticəsində strateji tərəfdaşlığın və müttəfiqliyin ən yüksək zirvəsinə çatdığı qeyd olunub.

İkitərəfli münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin rolu yüksək qiymətləndirilib, Milli Məclislə Türkiyə Böyük Millət Məclisi arasında həm ikitərəfli, həm də beynəlxalq müstəvidə qarşılıqlı faydalı əməkdaşlığın mövcud olduğu vurğulanıb.

Görüşdə Azərbaycan–Türkiyə münasibətlərinin ticarət-iqtisadi, enerji, nəqliyyat, kənd təsərrüfatı, humanitar, turizm və digər sahələrdə daha da genişləndirilməsi ilə bağlı məsələlər müzakirə edilib.

**"Xalq qəzeti"**

## Numan Kurtulmuş TÜRKPA-nın Baş Katibliyinin inzibati binası ilə tanış olub



**İyulun 12-də Türkiyə Böyük Millət Məclisinin, həmçinin Türkdilli Dövlətlərin Parlament Assambleyasının fəaliyyətdə olan sədri Numan Kurtulmuş qurumun Baş Katibliyinin Bakıda yerləşən inzibati binası ilə tanış olub.**

Sonra Numan Kurtulmuş binanın həyətində şam ağacı əkib.

# Numan Kurtulmuş: Azərbaycanın öz torpaqlarını 30 illik işğaldan azad etməsi tarixi zəfərdir



**Dünən Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuşun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdü. Əvvəlcə iki qardaş ölkənin parlament sədrləri arasında təkbətək görüş keçirildi. Sonra TBMM-in Sədri Heydər Əliyev xatirə zalındakı eksponatlarla tanış oldu, buradakı Xatirə kitabına ürək sözlərini yazdı. Daha sonra tərəflər arasında geniş tərkibdə görüş keçirildi.**

S.Qafarova TBMM sədrini bu vəzifəyə seçilməsi münasibətilə təbrik etdi və Türkiyədə keçirilmiş seçkilərdə cənab Rəcəb Tayyib Ərdoğanın yenidən dövlət başçısı seçilməsinin Azərbaycanda da sevinclə qarşılandığını bildirdi. Parlamentin Sədri bu seçkilərdə Milli Məclisin deputatlarının da müşahidəçi qismində təmsil olunduqlarını diqqətə çatdırdı.

Sədr qeyd etdi ki, dövlət başçılarımızın şəxsi dostluq münasibətləri Azərbaycan və Türkiyə qardaşlığının, birliyinin və strateji müttəfiqliyinin bugünkü yüksək səviyyəyə çatmasında mühüm rol oynayır. Vətən müharibəsindən sonra dost və qardaş ölkələrimizin dövlət başçıları tərəfindən Şuşa Bəyannaməsinin imzalandığını xatırladan S.Qafarova bu sənədin imzalanması ilə bütün dünya bir daha Azərbaycan–Türkiyə qardaşlığının şahidi olduğunu bildirdi. O, dövlətlərimizin və xalqlarımızın xoş gündə də, çətin gündə də bir-birinin yanında olduğunu qeyd edərək Türkiyədə baş vermiş zəlzələ zamanı Azərbaycan dövlətinin və xalqının Türkiyəyə öz qardaş dəstəyini göstərməklə bunu bir daha sübut etdiyini diqqətə çatdırdı.

2023-cü ilin Azərbaycanda "Heydər Əliyev ili" elan edildiyini xatırladan S.Qafarova həmin vaxt Türkiyədə seçki dövrü olmasına baxmayaraq, parlamentin may ayında ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş iclasında Türkiyə nümayəndə heyətinin iştirak etməsini yüksək dəyərləndirdi: "Bununla yanaşı, iki ölkə arasında bütün sahələrdə olduğu kimi, parlamentlər arasında da geniş əlaqələr qurulub. Qanunverici orqanlar həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edir" deyən S.Qafarova bu ilin aprel ayında Azərbaycan Milli Məclisi ilə Türkiyə Böyük Millət Məclisi arasında imzalanmış Əməkdaşlıq haqqında sazişin ikitərəfli münasibətlərin inkişafına öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi. Bu saziş Şuşa Bəyannaməsinin parlamentlərarası əməkdaşlığa dair bəndinin həyata keçirilməsi və Azərbaycan–Türkiyə müttəfiqlik münasibətlərinin parlament səviyyəsində də əks etdirilməsi baxımından mühüm bir mexanizmdir.

Görüşdə yüksək qonağa işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən genişmiqyaslı quruculuq və bərpa işləri, sülh prosesinin gedişi barədə də məlumat verildi.

TBMM sədri kimi Azərbaycana ilk səfərindən məmnunluğunu bildirən Numan Kurtulmuş qardaş Azərbaycan dövlətinin və xalqının mühüm bir tarixi dövr yaşadığını diqqətə çatdıraraq bildirdi: "Azərbaycanın öz torpaqlarını 30 illik işğaldan azad etməsi tarixi zəfərdir. Bu, Cənubi Qafqaz regionunda ölkənizin gücünün göstəricisidir".

Qonaq qeyd etdi ki, bu gün Türkiyə də mühüm hədəflərə doğru irəliləməkdədir və 100 ildə böyük inkişaf yolu keçib. TBMM sədri bu ilin fevral ayında Türkiyədə baş vermiş zəlzələ zamanı Azərbaycan dövlətinin və xalqının hər zaman olduğu kimi, Türkiyəyə qardaş dəstəyini yüksək qiymətləndirdi.

**Ə.BƏDƏLOV,**
**"Xalq qəzeti"**

# QMİ sədrindən Ümumdünya Kilsələr Şurasına etiraz məktubu

**Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Allahşükür Paşazadə Ümumdünya Kilsələr Şurası (ÜKŞ) Mərkəzi Komitəsinin növbəti iclasının yekun sənədində birtərəfli xarakter daşıyan və erməni tərəfinin mənafelərinə xidmət edən bənd qəbul edilməsi ilə əlaqədar Şuraya etiraz məktubu ünvanlayıb.**

Müraciətin sonunda bildirilir: "Bu məktubumuzla rəhbərlik etdiyiniz təşkilatı həqiqəti müdafiə etməyə və obyektiv bəyanatlar verməyə, kövrək sülh şəraitində birtərəfli mövqe tutmamağa, ədalətin yanında olmağa, erməni tərəfinin qızışdırıcı fəaliyyətinə dəstək verməməyə çağırırıq. Çünki Vahid Yaradana və Haqqa xidmət edən din xadimləri, dini təşkilatlar, xüsusilə dini liderlər münaqişəyə və qarşıdurmaya deyil, humanizm ideyalarına, sülhə, birgəyaşayışa və qarşılıqlı anlaşmaya töhfə verməlidirlər".

**"Xalq qəzeti"**

# MN: Laçın və Kəlbəcərdə mövqelərimiz atəşə tutulub

**İyulun 12-si saat 13:50-dən 17:00-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Qarakilsə rayonunun Qızılcıq və Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Laçın rayonunun Minkənd və Kəlbəcər rayonunun Mollabayramlı yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini atıcı silahlardan fasilələrlə atəşə tutub.**

Bölmələrimiz tərəfindən qeyd olunan bütün istiqamətlərdə adekvat cavab tədbirləri görülüb.

**"Xalq qəzeti"**

# Delimitasiya üzrə komissiyaların dördüncü görüşü

**İyulun 12-də Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sərhəddə Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayevin və Ermənistanın Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi altında iki ölkə arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının, Ermənistan ilə Azərbaycan arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın dördüncü görüşü keçirilib.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, tərəflər Azərbaycanın və Ermənistanın rəhbərləri səviyyəsində müxtəlif formatlarda əldə edilən razılaşmaları nəzərə alaraq, delimitasiya məsələlərinin müzakirəsini davam etdirib, bir sıra təşkilati və prosedur məsələləri nəzərdən keçiriblər.

Tərəflər, həmçinin komissiyaların növbəti görüşünün keçirilməsinin tarixi və yerini işçi qaydada müəyyən etmək barədə razılığa gəliblər.

**"Xalq qəzeti"**

## "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 882-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2020-ci il 27 fevral tarixli 946 nömrəli, "Valideyn himayəsindən məhrum olmuş uşaqlar və övladlığagötürmə" altsisteminə inteqrasiya olunacaq dövlət orqanlarının (qurumlarının) və digər aidiyyəti qurumların informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın təsdiq edilməsi haqqında" 2020-ci il 8 dekabr tarixli 1206 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 882-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki, "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 882-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 946 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 104, № 12 (I kitab), maddə 1467; 2021, № 4, maddə 315; 2023, № 3, maddə 353) ilə təsdiq edilmiş "Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.4-cü bəndə "vəzifəli şəxsləri," sözlərindən sonra "yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları," sözləri əlavə olunsun və həmin bənddə "yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanlarına (bundan sonra – qəyyumluq və himayə orqanları)" sözləri "Nazirliyə" sözü ilə əvəz edilsin;

3.2. 2.5-ci bənddə "qəyyumluq və himayə orqanları" sözləri "Nazirlik" sözü ilə əvəz olunsun və həmin bəndə "uşaqlar" sözündən sonra ", himayədar ailə" sözləri əlavə edilsin;

3.3. 4.2-ci bəndin birinci cümləsində və 4.3-cü bənddə "12" rəqəmləri "12 (on iki)" sözləri ilə əvəz edilsin;

3.4. 5.2-ci bəndə "tərkibi" sözündən sonra "(ailə üzvlərinin sayı, o cümlədən ailədə olan uşaqların yaşı və cinsi)" sözləri əlavə edilsin;

3.5. aşağıdakı məzmunda 15.2-1-ci bənd əlavə edilsin:

"15.2-1. Uşaq onu 3 (üç) aydan az olmayan müddətdə tərbiyə edən qəyyumları (himayəçiləri), habelə himayədar valideynləri tərəfindən övladlığa götürüldükdə Azərbaycan Respublikası Ailə Məcəlləsinin 118.3.3 – 118.3.5-ci maddələrinin tələbləri həmin şəxslərə şamil olunmur.".

**4.** "Valideyn himayəsindən məhrum olmuş uşaqlar və övladlığagötürmə" altsisteminə inteqrasiya olunacaq dövlət orqanlarının (qurumlarının) və digər aidiyyəti qurumların informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 dekabr tarixli 1206 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (I kitab), maddə 1468; 2023, № 3, maddə 349) aşağıdakı dəyişikliklər edilsin:

4.1. adına və 1 – 3-cü hissələrə "uşaqlar" sözündən sonra ", himayədar ailə" sözləri əlavə edilsin;

4.2. həmin Fərmanla təsdiq edilmiş "Valideyn himayəsindən məhrum olmuş uşaqlar və övladlığagötürmə" altsisteminə inteqrasiya olunacaq dövlət orqanlarının (qurumlarının) və digər aidiyyəti qurumların informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın adına "uşaqlar" sözündən sonra ", himayədar ailə" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 iyul 2023-cü il**

## Polşanın Krakov şəhərində keçirilən III Avropa Oyunlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikası idmançılarının, onların məşqçilərinin və idmançıların oyunlara hazırlığı prosesində iştirak etmiş digər mütəxəssislərin mükafatlandırılması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Polşanın Krakov şəhərində keçirilən III Avropa Oyunlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikası idmançılarının, onların məşqçilərinin və idmançıların oyunlara hazırlığı prosesində iştirak etmiş digər mütəxəssislərin mükafatlandırılması üçün Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə 900 000 (doqquz yüz min) manat vəsait ayrılsın.

**2.** Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi:

2.1. idmançılar arasında rəqabətin səviyyəsi, yarışların çətinlik dərəcəsi, ən yüksək nəticələrə görə medalların sayı nəzərə alınmaqla idmançıların, onların məşqçilərinin və idmançıların oyunlara hazırlığı prosesində iştirak etmiş digər mütəxəssislərin mükafatlandırılması üçün nəzərdə tutulmuş vəsaitin bölgüsünə, habelə vəsaitin idmançılara hissə-hissə ödənilməsinə dair qaydanı on beş gün müddətində hazırlayıb təsdiq etsin;

2.2. bu Sərəncamın 1-ci hissəsi ilə ayrılmış vəsaitin bu Sərəncamın 2.1-ci bəndində nəzərdə tutulmuş qaydaya uyğun olaraq hər bir idmançıya ödənilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 iyul 2023-cü il**

## "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 881-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2006-cı il 24 fevral tarixli 373 nömrəli, "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" 2013-cü il 29 avqust tarixli 973 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 881-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin:

1.1. "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikası Qanununun 7.0.10-5-ci, 7.0.15-ci, 9.1.12-ci, 9.6-cı, 10.2-2-ci və 11.1.9-cu maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 7.0.10-5-ci, 7.0.15-ci, 9.1.12-ci, 9.6-cı, 10.2-2-ci və 11.1.9-cu maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 881-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3.** "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 24 fevral tarixli 373 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 90, № 12, maddə 1034; 2007, № 1, maddə 7, № 10, maddə 942; 2008, № 5, maddələr 373, 374, № 8, maddə 727; 2011, № 7, maddə 633, № 12, maddə 1143; 2016, № 9, maddə 1466; 2019, № 7, maddə 1220; 2020, № 12 (I kitab), maddə 1498; 2021, № 8, maddə 918; 2023, № 1, maddə 84) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.1. "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikası Qanununun 4.0.1.6-cı, 7.0.3-cü, 7.0.6-cı, 7.0.7-ci, 7.0.10-5-ci, 7.0.15-ci, 8-ci, 9.1.5-ci, 9.1.6-cı, 9.1.12-ci, 9.6-cı, 10.2-2-ci, 11.1.5-ci, 11.1.6-cı və 11.1.9-cu maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

3.2. aşağıdakı məzmunda 2.1-1-ci bənd əlavə edilsin:

"2.1-1. həmin Qanunun 7.0.10-5-ci, 7.0.15-ci, 9.1.12-ci, 9.6-cı, 10.2-2-ci və 11.1.9-cu maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;".

**4.** "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 avqust tarixli 973 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 916; 2014, № 3, maddə 251; 2016, № 1, maddə 69; 2018, № 7 (I kitab), maddə 1454; 2019, № 4, maddə 640; 2020, № 11, maddə 1361; 2021, № 8, maddə 922, № 12, maddə 1361; 2022, № 12, maddə 1448; 2023, № 1, maddə 54) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.1.12-ci yarımbəndin 2-ci abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 1.1.13-cü yarımbənd əlavə edilsin:

"1.1.13. himayədar ailəyə verilmiş uşağın, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağın tərbiyə edilməsinə görə müavinət:

1. himayədar ailəyə verilmiş uşağa (bu Fərmanın 1.1.13-cü yarımbəndinin 2-ci abzasında qeyd olunan uşaqlar istisna olmaqla) görə: 0–6 yaş arası uşağa görə – 355 manat, 7–13 yaş arası uşağa görə – 375 manat, 14–18 yaş arası uşağa görə – 395 manat;

2. himayədar ailəyə verilmiş 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağa görə: 0–6 yaş arası uşağa görə – 395 manat, 7–13 yaş arası uşağa görə – 415 manat, 14–18 yaş arası uşağa görə – 435 manat.";

4.2. 1.2.4-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 1.2.5-ci yarımbənd əlavə edilsin:

"1.2.5. himayədar ailəyə verilmiş uşaqlara mövsümi geyim alınması üçün müavinət – 200 manat.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 iyul 2023-cü il**

## "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 884-VIQD nömrəli Qanununun tətbiqi və "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının 2011-ci il 30 dekabr tarixli 275-IVQ nömrəli Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 noyabr tarixli 758 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 884-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının 2011-ci il 30 dekabr tarixli 275-IVQ nömrəli Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 noyabr tarixli 758 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 11, maddə 1118; 2023, № 1, maddə 51, № 3, maddə 361) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.2.1-ci yarımbənddən "(valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum uşaqlar istisna olmaqla)" sözləri çıxarılsın və həmin yarımbəndə "18 yaşınadək uşaqlar;" sözlərindən sonra "valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlar;" sözləri əlavə edilsin;

1.2. 1.2.4-cü yarımbənddən "valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlar;" sözləri çıxarılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 884-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 iyul 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"də, 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə"də və 2020-ci il 30 iyun tarixli 1077 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Sosial Xidmətlər Agentliyinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Uşaqların valideyn himayəsindən məhrum olmasının qarşısının alınması və hüquqlarının müdafiəsinin gücləndirilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 15 fevral tarixli 1599 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 90, № 7, maddə 625, № 11, maddə 996; 2012, № 9, maddə 853, № 11, maddə 1084; 2013, № 2, maddə 124, № 12, maddə 1525; 2014, № 7, maddə 789, № 9, maddə 1053; 2015, № 1, maddə 17, № 3, maddələr 263, 264, № 6, maddə 705, № 8, maddə 908, № 10, maddə 1134; 2016, № 3, maddə 437, № 5, maddə 859, № 6, maddələr 1051, 1072; 2017, № 9, maddə 1633; 2018, № 3, maddə 433, № 6, maddə 1245; 2019, № 1, maddə 73, № 2, maddə 245, № 5, maddə 845, № 6, maddə 1036, № 7, maddə 1232, № 8, maddə 1397, № 11, maddə 1718, № 12, maddə 1935; 2020, № 3, maddə 247, № 6, maddə 717, № 8, maddə 1036; 2021, № 4, maddə 318, № 8, maddə 922, № 12, maddə 1403; 2022, № 7, maddə 762, № 8, maddə 871; 2023, № 3, maddə 361; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 may tarixli 2146 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.1-ci bəndə "reabilitasiyası" sözündən sonra ", himayədar ailə və övladlığagötürmə" sözləri əlavə edilsin;

1.2. 2.1.1-1-ci yarımbənddə "övladlığagötürmə sahəsində" sözləri "himayədar ailə və övladlığagötürmə sahələrində" sözləri ilə əvəz edilsin;

1.3. 3.1.57-1-ci yarımbəndə "vahid" sözündən əvvəl ", habelə himayədar ailə (himayədar valideyn) olmaq istəyən ailələrin (şəxslərin) və himayədar ailəyə verilmiş uşaqların" sözləri əlavə edilsin;

1.4. aşağıdakı məzmunda 3.1.57-6–3.1.57-9-cu yarımbəndlər əlavə edilsin:

"3.1.57-6. valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrdə yerləşdirilməsi və həmin müəssisələri tərk etməsi ilə bağlı qərar verilməsini təmin etmək;

3.1.57-7. valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrdən öz ailələrinə qaytarılması və ya himayədar ailəyə verilməsi ilə bağlı tədbirlər görülməsini təmin etmək;

3.1.57-8. valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrə düşməsinin qarşısının alınması ilə bağlı tədbirlər görülməsini, habelə həmin müəssisələrdə olan uşaqlarla bağlı fərdi inkişaf planlarının hazırlanmasını təmin etmək;

3.1.57-9. himayədar ailəyə verilmiş uşaqlar üzərində qəyyumluq (himayəçilik) orqanının funksiyalarının həyata keçirilməsini təmin etmək;".

**2.** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 634; 2020, № 4, maddə 417; 2021, № 5, maddə 445, № 6 (I kitab), maddə 566, № 8, maddə 919, № 10, maddə 1114, № 12, maddə 1406; 2022, № 5, maddə 462, № 7, maddə 761, № 8, maddə 848; 2023, № 3, maddə 347) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə"nin 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1.15-ci yarımbəndə "uşaqlar" sözündən sonra ", himayədar ailə" sözləri əlavə edilsin;

2.2. 2.3.15-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.3.15. "Valideyn himayəsindən məhrum olmuş uşaqlar, himayədar ailə və övladlığagötürmə" altsistemi vasitəsilə Azərbaycan Respublikası Prezidentinin "Övladlığagötürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2018-ci il 10 dekabr tarixli 393 nömrəli və "Uşaqların valideyn himayəsindən məhrum olmasının qarşısının alınması və hüquqlarının müdafiəsinin gücləndirilməsi ilə bağlı bəzi məsələlər haqqında" 2022-ci il 15 fevral tarixli 1599 nömrəli fərmanlarına uyğun olaraq, valideyn himayəsindən məhrum olmuş və övladlığa götürülən uşaqların, onları övladlığa götürməyi arzu edən şəxslərin, himayədar ailəyə verilmiş uşaqların və himayədar ailə (himayədar valideyn) olmaq istəyən ailələrin (şəxslərin) uçotunun, həmçinin övladlığagötürmə və himayədar ailə sahəsində digər xidmətlərin elektron qaydada aparılması;".

**3.** Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyun tarixli 1077 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 718; 2021, № 5, maddə 446, № 6 (I kitab), maddə 572, № 8, maddə 923, № 9, maddə 987, № 12, maddə 1403; 2022, № 4, maddələr 323, 329; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 aprel tarixli 2108 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Sosial Xidmətlər Agentliyinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.1-ci bəndə "habelə" sözündən sonra "himayədar ailə və" sözləri əlavə edilsin;

3.2. 2.1.5-ci yarımbənddə "övladlığagötürmə sahəsində" sözləri "himayədar ailə və övladlığagötürmə sahələrində" sözləri ilə əvəz edilsin;

3.3. 3.1.22-ci yarımbəndə "vahid" sözündən əvvəl ", habelə himayədar ailə (himayədar valideyn) olmaq istəyən ailələrin (şəxslərin) və himayədar ailəyə verilmiş uşaqların" sözləri əlavə edilsin;

3.4. aşağıdakı məzmunda 3.1.24-1–3.1.24-5-ci yarımbəndlər əlavə edilsin:

"3.1.24-1. valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrdə yerləşdirilməsi və həmin müəssisələri tərk etməsi ilə bağlı qərar qəbul etmək;

3.1.24-2. valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrdən öz ailələrinə qaytarılması və ya himayədar ailəyə verilməsi ilə bağlı tədbirlər görmək;

3.1.24-3. valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrə düşməsinin qarşısının alınması istiqamətində tədbirlər görmək, habelə həmin müəssisələrdə olan uşaqlarla bağlı fərdi inkişaf planlarını hazırlamaq;

3.1.24-4. himayədar ailəyə verilmiş uşaqlar üzərində qəyyumluq (himayəçilik) orqanının funksiyalarını həyata keçirmək;

3.1.24-5. himayədar ailə və valideyn himayəsindən məhrum olmuş uşaqların mənafeyinin müdafiəsi ilə əlaqədar Azərbaycan Respublikasının Ailə Məcəlləsindən irəli gələn digər vəzifələri yerinə yetirmək.".

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 iyul 2023-cü il**

## “Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 879-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2000-ci il 6 mart tarixli 297 nömrəli, “Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası”nın təsdiq edilməsi haqqında” 2012-ci il 8 may tarixli 626 nömrəli, “Yerli icra hakimiyyətləri haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” 2012-ci il 6 iyun tarixli 648 nömrəli, “Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” 2018-ci il 10 dekabr tarixli 387 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

# *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 879-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 68.4-1-ci maddəsində, 72.2-ci maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 116.1-ci, 116.2-ci, 116.4-cü, 116.5-ci (hər iki halda), 116.6-cı (hər iki halda), 116.7-ci maddələrində, 116.8-ci maddəsinin birinci və ikinci cümlələrində, 116.10-cu, 116-1.1-ci, 116-1.3-cü, 116-1.4-cü maddələrində, 116-1.5-ci maddəsinin birinci və ikinci cümlələrində, 119.1-ci, 138-1-ci, 142.1-ci, 142.2.3-cü, 142.3-cü, 142.4-cü (hər iki halda), 142.5-ci, 142.7-ci, 142.8-ci (hər iki halda), 142.9-cu, 142.10-cu, 142.12–142.14-cü, 142-1.1-ci (hər iki halda) maddələrində, 142-1.3-cü maddəsinin birinci cümləsində, 142-1.7-ci, 142-1.7.11-ci maddələrində, 142-1.8-ci maddəsinin birinci və ikinci cümlələrində, 143.2-ci, 143.2.5-ci, 143.3-cü, 143.4-cü, 143-1.1-ci, 143-1.2-ci, 143-1.4-cü, 143-2.1–143-2.3-cü, 145.10-cu, 145-1.1.3–145-1.1.5-ci, 145-1.2.1-ci, 145-1.2.3–145-1.2.6-cı maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 68.4-1-ci maddəsində, 72.2-ci maddəsinin birinci cümləsində (ikinci halda), 116.1-ci, 116.2-ci, 116.4-cü, 116.5-ci (birinci halda), 116.6-cı (ikinci halda), 116.7-ci maddələrində, 116.8-ci maddəsinin birinci və ikinci cümlələrində, 116.10-cu, 116-1.1-ci, 116-1.3-cü, 116-1.4-cü maddələrində, 116-1.5-ci maddəsinin hər iki cümləsində, 119.1-ci, 138-1-ci, 142.1-ci, 142.2.3-cü, 142.3-cü, 142.4-cü (hər iki halda), 142.5-ci, 142.7-ci, 142.8-ci (hər iki halda), 142.9-cu, 142.10-cu, 142.12–142.14-cü, 142-1.1-ci (hər iki halda) maddələrində, 142-1.3-cü maddəsinin birinci cümləsində, 142-1.7-ci, 142-1.7.11-ci maddələrində, 142-1.8-ci maddəsinin birinci və ikinci cümlələrində, 143.2-ci, 143.2.5-ci, 143.3-cü, 143.4-cü, 143-1.1-ci, 143-1.2-ci, 143-1.4-cü, 143-2.1–143-2.3-cü, 145.10-cu, 145-1.1.3–145-1.1.5-ci, 145-1.2.1-ci, 145-1.2.3–145-1.2.6-cı maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 72.2-ci maddəsinin birinci cümləsində (birinci halda) və ikinci cümləsində, 116.5-ci (ikinci halda), 116.6-cı (birinci halda) maddələrində “orqan (qurum)” dedikdə yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi aşağıdakı normativ hüquqi aktları iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

2.1. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 142.12-ci maddəsinə uyğun olaraq, uşağın himayədar ailəyə verilməsinə dair müqavilənin formasını;

2.2. həmin Məcəllənin 142.14-cü maddəsinə uyğun olaraq, himayədar valideynlərə verilən vəsiqənin nümunəsini;

2.3. həmin Məcəllənin 142-1.8-ci maddəsinə uyğun olaraq, himayədar valideyn olmaq istəyən şəxsin ərizəsinin formasını.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti “Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 879-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**4.** “Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 297 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 164; 2002, № 7, maddə 412, № 8, maddə 478, № 12, maddə 716; 2003, № 6, maddə 290; 2004, № 7, maddə 526; 2006, № 12, maddə 1034; 2007, № 3, maddə 226, № 11, maddə 1105; 2010, № 5, maddə 393, № 7, maddə 613, № 8, maddə 722; 2019, № 5, maddə 818, № 12, maddə 1930; 2021, № 6 (I kitab), maddə 565; 2022, № 1, maddə 30; 2023, № 1, maddə 85, № 3, maddə 348; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 may tarixli 2160 nömrəli Fərmanı) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci bəndə “65.5,” rəqəmlərindən sonra “68.4-1-ci maddəsində, 72.2-ci maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində,” sözləri, “115.7-ci,” sözlərindən sonra “116.1, 116.2, 116.4, 116.5 (hər iki halda), 116.6 (hər iki halda), 116.7-ci maddələrində, 116.8-ci maddəsinin birinci və ikinci cümlələrində, 116.10, 116-1.1, 116-1.3, 116-1.4-cü maddələrində, 116-1.5-ci maddəsinin birinci və ikinci cümlələrində,” sözləri, “118.20,” rəqəmlərindən sonra “119.1,” rəqəmləri, “131.4,” rəqəmlərindən sonra “138-1, 142.1, 142.2.3, 142.3, 142.4 (hər iki halda), 142.5, 142.7, 142.8 (hər iki halda), 142.9, 142.10, 142.12-142.14, 142-1.1-ci (hər iki halda) maddələrində, 142-1.3-cü maddəsinin birinci cümləsində, 142-1.7, 142-1.7.11-ci maddələrində, 142-1.8-ci maddəsinin birinci və ikinci cümlələrində, 143.2, 143.2.5, 143.3, 143.4, 143-1.1, 143-1.2, 143-1.4, 143-2.1–143-2.3, 145.10, 145-1.1.3–145-1.1.5, 145-1.2.1, 145-1.2.3–145-1.2.6” sözləri əlavə edilsin;

4.2. 2.2-ci bənddən “116.2,” və “142.2,” rəqəmləri çıxarılsın;

4.3. 2.9-cu bənddən “49.4, 51.2,”, “63.3, 66.5,”, “69.4,”, “72.2,” və “114.1, 114.2, 114.3, 115.1-115.3, 116.4, 144.2, 145.2, 145.7” rəqəmləri çıxarılsın;

4.4. 2.11-ci bəndə “Məcəllənin” sözündən sonra “63.3,” rəqəmləri, “65.2,” rəqəmlərindən sonra “66.5, 69.4, 114.1, 114.2, 114.3, 115.1, 115.3” rəqəmləri və “134.13,” rəqəmlərindən sonra “145.7,” rəqəmləri əlavə edilsin;

4.5. aşağıdakı məzmunda 2.9-1-ci, 2.9-2-ci və 2.11-1-ci bəndlər əlavə edilsin:

“2.9-1. həmin Məcəllənin 72.2-ci maddəsinin birinci cümləsində (birinci halda) və ikinci cümləsində, 116.5 (ikinci halda), 116.6-cı (birinci halda) maddələrində “orqan (qurum)” dedikdə yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları nəzərdə tutulur;

2.9-2. həmin Məcəllənin 49.4-cü və 51.2-ci maddələrində müvafiq icra hakimiyyəti orqanı dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları nəzərdə tutulur;”;

“2.11-1. həmin Məcəllənin 68.4-1-ci maddəsində, 72.2-ci maddəsinin birinci cümləsində (ikinci halda), 116.1, 116.2, 116.4, 116.5 (birinci halda), 116.6 (ikinci halda), 116.7-ci maddələrində, 116.8-ci maddəsinin birinci və ikinci cümlələrində, 116.10, 116-1.1, 116-1.3, 116-1.4-cü maddələrində, 116-1.5-ci maddəsinin birinci və ikinci cümlələrində, 119.1, 138-1, 142.1, 142.2.3, 142.3, 142.4 (hər iki halda), 142.5, 142.7, 142.8 (hər iki halda), 142.9, 142.10, 142.12–142.14, 142-1.1 (hər iki halda), 142-1.3, 142-1.7, 142-1.7.11-ci maddələrində, 142-1.8-ci maddəsinin birinci və ikinci cümlələrində, 143.2, 143.2.5, 143.3, 143.4, 143-1.1, 143-1.2, 143-1.4, 143-2.1–143-2.3, 145.10, 145-1.1.3–145-1.1.5, 145-1.2.1, 145-1.2.3–145-1.2.6-cı maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;”.

**5.** Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 626 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 5, maddə 419; 2019, № 5, maddə 847, № 12, maddə 1936; 2020, № 7, maddə 895, № 8, maddə 1036; 2021, № 6 (I kitab), maddə 566, № 8, maddə 922; 2022, № 6, maddə 599; 2023, № 3, maddə 351) ilə təsdiq edilmiş “Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.5.11-ci yarımbəndə “vahid” sözündən əvvəl “, habelə himayədar ailə (himayədar valideyn) olmaq istəyən ailələrin (şəxslərin) və himayədar ailəyə verilmiş uşaqların” sözləri əlavə edilsin;

5.2. 2.5.16-cı yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.5.17–2.5.21-ci yarımbəndlər əlavə edilsin:

“2.5.17. himayədar ailə sahəsində tənzimləmənin və dövlət nəzarətinin həyata keçirilməsini təmin edir;

2.5.18. himayədar ailəyə verilmiş uşaqlar üzərində qəyyumluq (himayəçilik) orqanının funksiyalarını həyata keçirir;

2.5.19. valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrdə yerləşdirilməsi və həmin müəssisələri tərk etməsi ilə bağlı qərar qəbul edir;

2.5.20. valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrdən öz ailələrinə qaytarılması və ya himayədar ailəyə verilməsi ilə bağlı tədbirlər görür;

2.5.21. valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrə düşməsinin qarşısının alınması istiqamətində tədbirlər görülməsini, habelə həmin müəssisələrdə olan uşaqlarla bağlı fərdi inkişaf planlarının hazırlanmasını təmin edir.”;

5.3. 2.8.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

“2.8.3. Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq, vahid uçota alınmış valideyn himayəsindən məhrum olan uşaqların yerləşdirilməsinə yardım edir;”;

5.4. 2.8.7-ci yarımbənd ləğv edilsin.

**6.** Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 542; 2013, № 1, maddə 29, № 2, maddə 117, № 3, maddə 246, № 8, maddə 909, № 10, maddə 1155, № 12, maddə 1514; 2014, № 5, maddələr 477, 487, № 9, maddə 1027, № 12, maddə 1577; 2015, № 3, maddə 271, № 9, maddə 1005, № 11, maddə 1322, № 12, maddə 1448; 2016, № 2 (II kitab), maddə 273, № 5, maddələr 859, 864, № 8, maddə 1384, № 9, maddə 1464, № 10, maddə 1647, № 11, maddə 1835; 2017, № 3, maddə 353, № 4, maddə 545, № 5, maddə 807, № 8, maddə 1521, № 10, maddə 1797; 2018, № 2, maddələr 191, 215, № 3, maddə 427, № 4, maddə 659, № 7 (I kitab), maddə 1462, № 10, maddə 2017, № 12 (I kitab), maddələr 2538, 2596; 2019, № 3, maddə 406, № 4, maddə 655, № 5, maddələr 820, 826, 848, 852, 857, № 6, maddə 1037, № 12, maddə 1936; 2020, № 1, maddə 7, № 8, maddə 1039, № 10, maddə 1247; 2021, № 1, maddələr 16, 36, № 6 (I kitab), maddə 567, № 8, maddə 919, № 11, maddə 1211, № 12, maddə 1367; 2022, № 1, maddə 29, № 4, maddələr 302, 323, № 5, maddə 475, № 6, maddə 594, № 8, maddə 874, № 10, maddə 1142, № 12, maddələr 1411, 1428, 1441; 2023, № 4, maddə 480) ilə təsdiq edilmiş “Yerli icra hakimiyyətləri haqqında Əsasnamə”nin 4.6.15-ci yarımbəndi ləğv edilsin.

**7.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2544; 2019, № 7, maddələr 1213, 1233, № 12, maddə 1935; 2020, № 8, maddə 1039; 2021, № 5, maddə 435, № 6 (I kitab), maddələr 579, 583, № 8, maddə 922, № 9, maddələr 983, 987, № 11, maddə 1212, № 12, maddə 1403; 2022, № 12, maddə 1448; 2023, № 2, maddə 219) ilə təsdiq edilmiş “DOST” mərkəzlərində göstərilən xidmətlərin siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

7.1. 5.2.1-ci yarımbəndə aşağıdakı məzmunda 6-cı abzas əlavə edilsin:

“6. himayədar ailəyə verilmiş uşaqlara mövsümi geyim alınması üçün müavinət”;

7.2. 5.2.2-ci yarımbəndə aşağıdakı məzmunda 4-2-ci abzas əlavə edilsin:

“4-2. himayədar ailəyə verilmiş uşağın, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağın tərbiyə edilməsinə görə müavinət”;

7.3. aşağıdakı məzmunda 9-2-ci və 9-3-cü hissələr əlavə edilsin:

“9-2. Himayədar ailə sahəsində göstərilən xidmətlər

9-2.1. himayədar ailə ilə bağlı müraciətlərin qəbul edilməsi

9-2.2. himayədar ailə ilə bağlı məsləhət və məlumat verilməsi

9-3. Valideyn himayəsindən məhrum olmuş uşaqların hüquqlarının müdafiəsi, onların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrə yerləşdirilməsi və həmin müəssisələrdən götürülməsi ilə bağlı müraciətlərin qəbul edilməsi”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 iyul 2023-cü il**

## “Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 880-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 386 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

# *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 880-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 35.1-ci maddəsinin üçüncü cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirir.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti “Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 880-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3.** “Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 386 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 609; 2001, № 10, maddə 640; 2003, № 8, maddə 435, № 10, maddə 552; 2004, № 6, maddə 435; 2005, № 2, maddə 64, № 5, maddə 403; 2006, № 7, maddə 590, № 12, maddə 1034; 2007, № 3, maddə 228, № 6, maddə 606, № 11, maddə 1110, № 12, maddə 1246; 2008, № 6, maddə 493; 2009, № 3, maddə 163, № 5, maddə 324; 2010, № 5, maddə 399, № 7, maddələr 610, 628; 2011, № 8, maddə 751; 2012, № 6, maddə 535; 2014, № 6, maddə 626; 2016, № 9, maddə 1464, № 12, maddə 2071; 2017, № 2, maddə 186; 2018, № 1, maddə 43, № 2, maddə 171, № 7 (I kitab), maddə 1448; 2019, № 4, maddə 617, № 7, maddə 1239; 2020, № 5, maddə 540, № 7, maddə 891; 2022, № 8, maddə 863) aşağıdakı məzmunda 3.2-1-ci bənd əlavə edilsin:

“3.2-1. həmin Məcəllənin 35.1-ci maddəsinin üçüncü cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirir;”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 iyul 2023-cü il**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 223** **Bakı şəhəri, 8 iyul 2023-cü il**

***“Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 299, № 8, maddə 550, № 10, maddə 639; 1999, № 2, maddə 150; 2000, № 5, maddə 374, № 7, maddə 559, № 8 (III kitab), maddə 643, № 9, maddələr 690, 699, 700, № 10, maddə 770; 2001, № 3, maddə 217, № 4, maddə 289, № 8, maddə 561; 2002, № 4 (II kitab), maddələr 209, 212; 2005, № 1, maddə 56; 2006, № 2, maddə 180, № 4, maddə 367, № 7, maddə 652; 2008, № 7, maddələr 672, 687; 2009, № 9, maddələr 742, 744, № 12, maddələr 1061, 1071; 2010, № 7, maddə 706, № 12, maddə 1114; 2011, № 1, maddə 68, № 8, maddə 774; 2012, № 1, maddə 39, № 7, maddə 779, № 10, maddə 1020; 2013, № 11, maddə 1458; 2014, № 4, maddə 456; 2015, № 7, maddə 895; 2016, № 4, maddə 801, № 8, maddələr 1432, 1460, № 12, maddə 2213; 2017, № 2, maddə 312, № 6, maddə 1242, № 8, maddə 1625; 2018, № 4, maddə 826; 2019, № 1, maddə 154, № 5, maddə 947, № 8, maddə 1468; 2020, № 2, maddə 220; 2021, № 1, maddə 89, № 2, maddə 203, № 6 (IV kitab), maddə 680, № 11, maddələr 1256, 1260; 2022, № 1, maddə 85, № 4, maddələr 390, 406, № 12, maddə 1548; 2023, № 2, maddə 318) aşağıdakı məzmunda 4.35-ci bənd əlavə edilsin:

“4.35. benefisiar dövlət orqanı (qurumu) və ya benefisiar fondun təsdiqedici sənədinə əsasən, hüquqi və fiziki şəxslər tərəfindən dövlət orqanlarına (qurumlarına), eləcə də siyahısı Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 may tarixli 2147 nömrəli Fərmanı ilə təsdiq edilmiş ictimai və sosial məqsədlər üçün yaradılmış fondlara əvəzsiz olaraq verilməsi, habelə dövlət orqanlarına (qurumlarına) və həmin fondlara əvəzsiz olaraq verilən daşınmaz əmlakların və əmlak kompleksi şəklində müəssisələrin yaradılması üçün idxal olunan mallar.”.

**2.** Bu Qərar 2023-cü il yanvarın 1-dən tətbiq edilir və 2026-cı il dekabrın 31-dək qüvvədədir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 224** **Bakı şəhəri, 8 iyul 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Elektron icra” informasiya sistemi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” 2021-ci il 12 oktyabr tarixli 306 nömrəli, “Elektron notariat” informasiya sistemi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” 2021-ci il 12 oktyabr tarixli 307 nömrəli və “Elektron informasiya ehtiyatlarının (məlumat bazaları, məlumat-axtarış sistemləri, reyestrlər və digər informasiya resursları) dövlət satınalmalarının vahid internet portalına inteqrasiya olunması hədləri”nin təsdiq edilməsi barədə” 2022-ci il 29 yanvar tarixli 38 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında***

“Elektron hökumət sahəsində idarəetmənin təkmilləşdirilməsi və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli, “Azərbaycan Respublikasında rəqəmsal inkişaf və nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli, “Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında” 2018-ci il 14 mart tarixli 1885 nömrəli və “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında” 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 noyabr tarixli 1887 nömrəli Fərmanının 4.7-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Elektron icra” informasiya sistemi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 12 oktyabr tarixli 306 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1175) 2-ci hissəsində “Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi” sözləri “Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi” sözləri ilə əvəz edilsin.

**2.** “Elektron notariat” informasiya sistemi haqqında Əsasna-mə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 12 oktyabr tarixli 307 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1176) 2-ci hissəsində “Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi” sözləri “Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi” sözləri ilə əvəz edilsin.

**3.** “Elektron informasiya ehtiyatlarının (məlumat bazaları, məlumat-axtarış sistemləri, reyestrlər və digər informasiya resursları) dövlət satınalmalarının vahid internet portalına inteqrasiya olunması hədləri”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 29 yanvar tarixli 38 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 1, maddə 87) 3-cü hissəsində “Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi” sözləri “Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 225** **Bakı şəhəri, 8 iyul 2023-cü il**

***“Qida təhlükəsizliyi sahəsində risklərin təhlili qaydası”nın təsdiq edilməsi haqqında***

“Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2000-ci il 26 yanvar tarixli 267 nömrəli, “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə” 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli fərmanlarının ləğv edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 iyun tarixli 1723 nömrəli Fərmanının 1.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Qida təhlükəsizliyi sahəsində risklərin təhlili qaydası” təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.*

# “Ayıbınıza gəlmir, nə qədər “sovet”, “proletar” olar?”



## *Ulu öndər respublikamıza rəhbərlik edəndə də, Moskvada işləyəndə də “Azərbaycan”, “Gəncə”, “Nizami Gəncəvi” deməkdən yorulmurdu...*

**Məqalənin sərlövhəsinə çıxardığım sözləri Heydər Əliyev 25 il qabaq Gəncədə deyib. Yadımdadır, həmin gün, oktyabrın 7-si payız havasından daha çox qızmar yay gününü xatırladırdı. Amma, bu, şəhərin baş meydanına– icra hakimiyyətinin inzibati binası qarşısına toplaşan on minlərlə sakinin halına qətiyyən təfavüt eləmirdi. Çünki hamı o böyük şəxsiyyəti bir daha yaxından görmək istəyirdi. Bu istək gəncəlilərin qəlbində çoxdan özünə yuva salmışdı...**



Seçkiqabağı bir görüş idi. Amma rəsmiyyətçilik heç hiss olunmurdu. Kənardan baxanda görüş daha çox bir ailənin səmimi söhbətini xatırladırdı. Heydər Əliyev Moskvada işlədiyi illərdə qarşılaşdığı problemlərdən, Azərbaycanla, Gəncə ilə bağlı məsələlərin necə böyük çətinliklərlə, amma bütün sədləri dəf etməklə həll olunmasından danışırdı. Birdən...

– Moskvada olanlar və Azərbaycanda yaşayıb, millətinin mənafeyini anlamayanlar layihələr hazırlamışdılar ki, o üç rayona “sovet”, “proletar” və “Zavod” adları verək. O vaxt bizim ikinci katib rus idi. O, bunları hazırlamış və Moskva ilə də razılaşdırmışdı. Mənim yanımda işləyən azərbaycanlıları çağırdım, dedim, utanmırsınız, ayıbınıza gəlmir? Nə qədər “Sovet”, “Proletar” olar?

Heydər Əliyev bunları deyərkən insan seli, sanki, lərzəyə gəldi. Gəncə sakinləri ilk dəfə idi ki, bu sözləri eşidirdilər. Bir anlığa “Heydər!”, “Gəncə!” sədaları meydanı bürüdü. Bu sədalar 5 il əvvəl, 1993-cü ilin iyunun 13-də Gəncənin, ölkənin ağır günlərində Heydər Əliyevin Bakıdan gələrək, elə bu meydanda narahat, təlaş, ümüd dolu gözlərin qarşısındakı çıxışını yadıma saldı...

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə 15 dəfə Gəncədə olub. Burada ulu öndərlə keçirilən hər görüş, toplantı, müşavirə və digər tədbirlər orta və yaşlı nəslin yaxşı yadındadır. Onlardan biri də Gəncədə aparılan abadlıq-quruculuq işlərində həmişə yaxından iştirak edən “Gəncə Körpü Tikinti-2” ASC-nin sədri Aqibət Məmmədovdur. Aqibət müəllim deyir ki, o illər sanki şirin bir yuxu idi...

**Aqibət Məmmədov:**

– Heydər Əliyevi Gəncəsiz, Gəncəni Heydər Əliyevsiz təsəvvür etmək olmur. Bu qədim şəhərin, az qala, hər qarışında ulu öndərimizin izi var. Gəncənin adının özünə qaytarılması, milli adət və ənənələrinin yaşadılması, tarixi şəxsiyyətlərinin, o cümlədən Nizami Gəncəvi irsinin qorunub saxlanılması birbaşa onun adı ilə bağlıdır. Heydər Əliyevin bu fikri heç vaxt yadımdan çıxmaz: **“Azərbaycana, Azərbaycan xalqına təkcə Nizami Gəncəvi kimi dahi bir şəxsiyyət bağışladığına görə Gəncə torpağı, Gəncə xalqı, gəncəlilər əbədi minnətdarlığa layiqdirlər.”**

Heydər Əliyevin Bakıda və Gəncədə keçirdiyi müxtəlif tədbirlərdə, bir çox görüşlərdə, müşavirələrdə iştirak etmişəm, Moskvada olarkən də bütün təzyiqlərə baxmayaraq, Azərbaycan, Gəncə üçün nələr etdyini öz dilindən eşitmişəm. O da yadımdadır ki, Heydər Əliyev Gəncə sakinləri qarşısında çıxış edərkən demişdi: **“Açıq danışım, biz o vaxt Kirovabad adını dəyişdirib Gəncə qoymaq imkanına malik deyildik. Ancaq mən buna yol açdım. Burada yaradılan iki rayondan birinə “Gəncə”, o birisinə də “Kəpəz” adı verdim. Mən bununla da qane olmadım. Bakıda yaradılan yeni böyük rayona “Nizami” adı verdim. Beləliklə, qədim Gəncənin adını bərpa etdik, Gəncə öz tarixi adını aldı. Ancaq xatirinizdədir, hələ bu adı almamış burada “Yeni Gəncə” yaşayış massivi yarandı. Mən gəldim, orada ilk ağacları basdırdıq, ilk daşları qoyduq. Orada böyük binalar tikildi və qədim Gəncənin yanında bir Yeni Gəncə yarandı. Bunlar hamısı Azərbaycanın tarixinə, milliliyinə və Gəncənin tarixinə olan xidmətlərimdir və inanıram ki, siz bunu bu gün də unutmamısınız və heç vaxt da unutmayacaqsınız.”**

Aqibət Məmmədov onu da əlavə etdi ki, Heydər Əliyevin Gəncədə gördüyü misilsiz işlərin miqyasını nəzərə alıb şəhərin görməli yerində təkcə bu obyektlərin adlarını və maketini nəfis şəkildə nəhəng bir lövhə üzərində həkk etmək lazımdır ki, şəhərimizə gələn qonaqlarda da təsəvvür yaransın. Doğrudur, kitablarda, muzeylərdə bütün bunlar barədə məlumatlar var. Lakin şəhərdə, açıq havada belə bir nəcib iş görülsə, zənnimcə, hamının ürəyindən xəbər verər. Biz inşaatçılar da bu işdə yaxından iştirak etməyə, köməyə hazırıq.

…Heydər Əliyevi xalqa, o cümlədən Gəncə sakinlərinə sevdirən cəhətlərdən biri də onun son dərəcə cəsarətli və prinsipial olması idi. Gəncədə az sənaye müəssisəsi tapılar ki, Heydər Əliyevin təşəbbüsü və bilavasitə iştirakı, köməyi ilə tikilməsin. Xalça kombinatı, qənnadı fabriki, çini qablar və büllur zavodları, gil-torpaq kombinatı, elektron-maşınqayırma müəssisələri bilavasitə dahi şəxsiyyətin dəmir iradəsinin nəticəsində fəaliyyət göstərməyə başlamışdı və on minlərlə gəncəli daimi işlə təmin olunmuşdu.

Heydər Əliyev Moskvada da işləyəndə çalışırdı ki, Gəncə, sözün əsl mənasında Bakıdan sonra respublikanın ikinci sənaye şəhərinə çevrilsin. **“Çalışırdım ki, Azərbaycanda bir avtomobil zavodu tikim, yaradım. Çünki düşünürdüm ki, başqa şəhərlərdə avtomobil istehsal olunur, amma Azərbaycanda yoxdur. Nəhayət, Moskvada belə böyük qərarın qəbul edilməsinə nail oldum. Ancaq yerini haranı seçdim? Gəncəni seçdim, Gəncədə avtomobil zavodunun inşasına başladıq.”**

Qeyd edək ki, bu zavodun tikintisini Heydər Əliyev hələ respublika rəhbəri olarkən başlatmışdı. Ancaq 1982-ci ilin dekabr ayında Moskvaya dəvət olunduqdan sonra işlər, demək olar ki,



dayanmışdı. Ulu öndər deyirdi: **“Mən orada 5 il işlədim və gördüm ki, bəzi adamlar Azərbaycanda belə böyük müəssisələrin yaradılmasına nə qədər maneçilik törədirlər.”**

Lakin Heydər Əliyev bir işi başlayırdısa, onu sonadək başa çatdıra bilirdi. Yuxarıda qeyd etdiyimiz kimi prinsipiallıq, iradə, uzaqgörənlik, doğma torpağa hədsiz bağlılıq bütün maneələri aşmaqda bu böyük şəxsiyyətə həyatı boyu dayaq olub. Bu dəfə də belə oldu.

Ulu öndər keçmiş SSRİ-də avtomobil nəqliyyatı sənayesinin inkişafı haqqında böyük bir qərar layihəsi hazırlayır. Ancaq Siyasi Büronun bir neçə üzvü müzakirə zamanı qərar layihəsini tənqid etməyə başlayır. Görünür, qərara Gəncə Avtomobil Zavodunun inşası üçün müəyyən vəsaitin ayrılması və onun qısa müddətdə başa çatdırılması ilə bağlı Heydər Əliyevin təkidi ilə salınmış cümlə xoşlarına gəlmir. Lakin uzun mübahisələrdən sonra ulu öndərin özünün dediyi kimi, “çox vuruşandan sonra” qərar qəbul edilir.

**Xanlar Fətiyev, “Gəncə Avtomobil Zavodu” İstehsalat Birliyi Müşahidə Şurasının sədri:**

– Heydər Əliyev o illəri xatırlayıb deyirdi ki, mən avtomobil sənayesi nazirini, demək olar, həftədə bir dəfə yanıma çağırır və hesabat istəyirdim ki, görüm Gəncədə Avtomobil zavodunun tikintisi üçün nə edib. O vaxt avadanlıqlar Qərb ölkələrindən alınırmış. Buna görə də Heydər Əliyev valyuta ayrılmasına nail olur və İngiltərədən böyük bir zavod üçün avadanlıq alınması barədə qərar qəbul edilir. Elə ki, 1987-ci ilin sonunda Heydər Əliyevi bütün vəzifələrdən kənarlaşdırırlar, işlər də dayandırılır. Siz elə bilirsiniz ki, Moskva dayandırır? Xeyr, bu dəfə Moskva yox, o dövrdə Azərbaycana rəhbərlik etmiş və öz bəd əməlləri ilə tanınmış Vəzirov İngiltərədən alınan avadanlıqdan imtina edir. Çünki qısqanclıq hissi, səriştəsizlik Gəncədə belə bir nəhəng zavodun inşasının dayanmasına gətirib çıxarır. Həmin avadanlığı isə aparıb Bryansk vilayətində quraşdırırlar və avtomobil zavodunu orada yaradırlar.

Bu gün bizim müəssisə, necə deyərlər, ayaq üstündədir. Dünyanın bir çox qabaqcıl avtomobil sənayesi müəssisələri ilə əlaqələr qurmuşuq. Zavodumuzda yığılan məhsullar öz keyfiyyətinə və davamlılığına görə seçilir. Bütün bunlara görə ulu öndərə, onun layiqli davamçısı İlham Əliyevə hədsiz minnətdarıq. Əgər dünya şöhrətli hər hansı bir şirkət bizimlə müqavilə bağlayıb iş görmək istəyirsə, bu, bizim dövlətimizə, onun Prezidentinə olan inam və məhəbbətdən, ölkəmizdəki sabitlikdən, nüfuzumuzdan irəli gəlir.

…Gəncə Heydər Əliyevi sonuncu dəfə yaxından 2002-ci ilin sentyabrında gördü. Ulu öndər şəhər fəalları ilə görüşdü, Olimpiya İdman Kompleksinin açılışında iştirak etdi, digər yerlərdə oldu. Ümumiyyətlə, Heydər Əliyev Gəncədə hara ayaq basıbsa, o ilk gəliş olmayıb. Səngərə düşübsə, dəfələrlə düşüb, sərrast atəş də açıb, igid əsgərə qol saatı da verib. Zərrabi Poeziya Teatrına gedibsə, ilk dəfə getməyib, çünki bu teatrı özü yaradıb. Nizami məqbərəsini ziyarət edibsə, böyük şairin ruhunu əməlləri, ona sonsuz ehtiramı ilə dəfələrlə şad edib.

– Biz hər il iyunun 15-ni Milli Qurtuluş Günü kimi qeyd edirik. Bəli, doğrudan da, ulu öndər xalqı bəlalardan qurtardı, vətəndaş müharibəsinin qarşısını aldı. Lakin mənə belə gəlir ki, əsl qurtuluş, inkişaf 1969-cu ilin 14 iyulundan başlanır. O dövrə kimi Azərbaycan bütün sahələr üzrə 15 respublika arasında ən geridə qalanı idi. Heydər Əliyev respublikanın rəhbəri seçildikdən sonra inkişaf, tərəqqi başlandı. Təkcə Gəncə buna əyani misaldır. Ona görə də 15 iyundan söhbət salarkən 14 iyulu da unutmamalıyıq…

Əslində, Gəncə Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Səməd Tomuyevin dediyi bu sözlərdə həqiqət var. Çünki 14 iyul olmasaydı, 15 iyun da olmayacaqdı. Heydər Əliyevin gəlişi xalqın taleyinə yazılan işıqlı bir səhifə idi.

…İllər ötür, lakin xeyirxah əməllər, dahiyanə uzaqgörənlik, xilaskarlıq missiyası, doğma torpağa bağlılıq, xalqını, millətini, onun gələcəyini hər şeydən üstün tutan böyük şəxsiyyət unudulmur. Məgər gəncəlilərin qəlbində xüsusi yeri olan bir insanı ututmaqmı olar?! AMEA-nın Gəncə bölməsinin Heydər Əliyevin 100 illiyinə həsr etdiyi 350 səhifəlik monoqrafiyanı vərəqlədikcə, xatirələrlə, sənədlərlə tanış olduqca o ritorik sual bir də dönə-dönə səslənir: Onu unutmaq olarmı?!

Yazını ulu öndərin sonuncu dəfə Gəncə Olimpiya İdman Mərkəzində dediyi bu sözlərlə tamamlamaq istəyirəm: **“Xatirimdədir, iyunun 13-də mən buraya gəldim. Mən Gəncəni heç vaxt ağır, faciəli vəziyyətdə görməmişdim. Gəldim, bir gecə burada danışıqlar apardım. Sabahısı gün şəhərə çıxdım, oradan, buradan avtomat atəşləri eşitdim. Haradan atırdılar? Kimlər və nə üçün atırdılar, kimi vurmaq istəyirdilər? Ondan iki-üç saat sonra mən Gəncəni tərk etdim. Təəssüflər olsun ki, Gəncə elə bir gün də görmüşdür, elə bir aylar da, günlər də keçirmişdir. Ancaq güman edirəm, siz bunu qiymətləndirirsiniz ki, biz bunların hamısına son qoyduq. İndi Azərbaycanın hər yerində olduğu kimi, Gəncədə də insanlar rahat yaşayır, cinayətkarlığın qarşısı alınıb, həmin özbaşınalıq edən ayrı-ayrı silahlı dəstələr ləğv olunub. Rahat yaşayırsınız və rahat işləyirsiniz...”**

**Hamlet QASIMOV,**
**“Xalq qəzeti”nin bölgə müxbiri, Əməkdar jurnalist**

# “Heydər Əliyevin həyatının 100 anı” İstanbulda




**Türkiyədə “Heydər Əliyevin həyatının 100 anı” (100 moments of Heydar Aliyevs life) kitabının ingilis dili versiyasının təqdimat mərasimi keçirilib.**

“Türkiyə Jurnalistlər Birliyinin” Mətbuat Muzeyində “Mərmərə Qrupu” Strateji və Sosial Araşdırmalar Vəqfi ilə “Azərbaycanım” beynəlxalq jurnalı tərəfindən birgə təşkil olunan təqdimatda rəsmi şəxslər, deputatlar, ictimai-siyasi xadimlər, KİV nümayəndələri iştirak ediblər.

Kitabın müəllifi, tanınmış publisist Emil Nəsirli ümummilli lider Heydər Əliyev həyatını Azərbaycanın müstəqilliyinə, ölkəmizin inkişafına, xalqımızın firavan gələcəyinə həsr etdiyini bildirib.

Çıxışında Ulu öndərlə bağlı xoş xatirələrini bölüşən “Mərmərə Qrupu” Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri professor Akkan Suver əminliklə vurğulayıb ki, Ümummilli liderimizin müəyyən etdiyi uzaqgörən dövlətçilik strategiyası onilliklər boyu Türk dünyasının birliyinə, Türkiyə–Azərbaycan qardaşlığının inkişafına töhfələr verəcək.

Türkiyənin ekologiya naziri Ali Talip Özdemir, professor Özgur Çengel və digərlərinin çıxışlarında Ulu öndər şəxsiyyətinin ucalığından bəhs olunub.

**“Xalq qəzeti”**

# TBMM-in sədri Numan Kurtulmuş ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib



**Azərbaycan Respublikasında rəsmi səfərdə olan Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Numan Kurtulmuşun rəhbərlik etdiyi nümayəndə heyəti iyulun 12-də Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.**

Ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər güllər düzülüb.

***

**Azərbaycan Respublikasında rəsmi səfərdə olan Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuşun rəhbərlik etdiyi nümayəndə heyəti dünən Şəhidlər xiyabanını ziyarət edib.**

Qonaqlar Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla anıb, məzarları üzərinə tər çiçəklər düzüblər.

Həmçinin "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Sonra Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış abidə ziyarət edilib, önünə əklil qoyulub, şəhidlik kitabəsinin üstünə gül dəstələri düzülüb.

Numan Kurtulmuş "Türk şəhidliyi" abidəsinin xatirə kitabına ürək sözlərini yazıb.

# Türkiyə Prezidenti: Rusiyanın anlaşmaya sadiq qalaraq sülhməramlılarını 2025-ci ildə Qarabağdan çıxaracağına inanıram

**Bildiyiniz kimi, razılığa görə, Rusiya sülhməramlıları 2025-ci ilə qədər müəyyən olunan yerlərdə qalmalıdır. 2025-ci ildə isə bu yerləri tərk edəcəkdir, anlaşma bu cür olub.**



Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Vilnüsdə NATO liderlərinin sammitindən sonra keçirilən mətbuat konfransında Qarabağda Rusiya sülhməramlılarının qalma müddətinin bitməsi ilə bağlı sualı cavablandırarkən deyib.

"Mən də Rusiyanın bu anlaşmaya sadiq qalacağına inanıram. Hörmətli qardaşım İlham Əliyev də bu məsələni yaxından izləyir", – deyə Ərdoğan əlavə edib.

**"Xalq qəzeti"**

# Dünya xaos dəllallarına "Yox!" deməyi bacarmalıdır

*"Etnik xarakterin böhranı" diaqnozu qoyulan fərd, toplum nə düşüncəsinə, nə danışığına, nə də hərəkətinə nəzarət edə bilir*

**"Özündə zorakılığa çağırış yetişdirən nifrətin təbliğatı bütün ölkələrdə qadağan olunmalıdır". BMT-nin insan haqları üzrə ali komissarı Folker Türk bu sözləri qurumun Cenevrədə keçirilən 53-cü sessiyasında çıxış edərkən deyib. Müsəlmanların müqəddəs kitabı Quranın təhqir olunması aktları ilə bağlı BMT çərçivəsində təcili debatlar İslam Əməkdaşlıq Təşkilatının bir neçə üzvü adından Pakistanın təklifi əsasında təşkil olunub.**



Ramazan ayı ərzində hər cümə günü İsveç paytaxtında sağ radikal təmayüllü siyasi cərəyanın üzvləri tərəfindən Quranın nümayişkaranə şəkildə, polisin müşayiəti ilə yandırılmasına dünya müsəlmanlarının kütləvi etirazları BMT-ni hərəkətə keçməyə məcbur etdi. Beynəlxalq qurumun insan haqları üzrə Ali Komissarlığının Pakistanın tələbi ilə təcili müzakirələr təşkil etməsi, nəhayət, bu vandalizm aktlarının, sadəcə, bir dövlətə, bir dinə, bir səmavi kitaba qarşı törədilmədiyini ən yüksək səviyyədə başa düşülmənin təzahürü saymaq olar.

Çıxışında "Zorakılığa, ayrı-seçkiliyə və düşmənçiliyə təhrik edən nifrətin təbliği hər bir dövlətdə qadağan olunmalıdır. Bütün cəmiyyətlərdə nifrətin dili ilə dialoqun, təhsilin, məlumatlılığın artırılması, konfessiyalararası və icmalararası qarşılıqlı fəaliyyət və dövlət siyasətinin digər alətləri vasitəsilə mübarizə aparmaq vacibdir", – deyən ali komissarın sözlərinə görə, yaranmış hazırki vəziyyətdə "siyasi və dini liderlər xüsusilə önəmli rol oynamalı", təkcə öz icmalarına münasibətdə deyil, eyni zamanda, hücuma məruz qalmış istənilən qrupa qarşı hörmətsizlik və dözümsüzlük hallarına qarşı təcili və qəti çıxış etməlidirlər. Ali komissar çıxışını belə tamamlayıb: "Xaos tacirlərinə bizi öz şəbəkələrinə çəkmələrinə və özlərinin siyasi faydaları üçün istifadə etmələrinə imkan vermək olmaz".

Son vaxtlar Avropanın bir sıra ölkələrində müxtəlif formalarda özünü büruzə verən dini və etnik nifrətin artması halları "həyəcan təbili"ni çalmağın vaxtının çatdığından xəbər verir. BMT-nin mətbuat xidmətinin bir qədər əvvəl yaydığı məlumatında bu təhlükəli təmayülə diqqət yetirilməsinin vacibliyi vurğulanırdı. Cenevrədə insan haqları üzrə Ali Komissarlığın 53-cü sessiyası çərçivəsində mövzu ətrafında debatlar bu gün də davam etdiriləcək. Müzakirələrin sonunda Quranın təhqir olunması aktlarının pislənilməsi ilə bağlı Pakistanın hazırladığı qətnamə layihəsinin qəbul ediləcəyi gözlənilir.

* * *

Məhz Türk dünyasına bəslədiyi dini-etnik nifrətin ucbatından daşnaklaşmış haylar bizə qarşı kütləvi qırğınlar, soyqırımları törədiblər. Bəli, dini-etnik zorakılığa təhrik edən nifrətin təbliğatına dünya "yox!" deməlidir. Belə hərəkətlər cinayət əməli sayılmalıdır.

Bu gün Hayastan cəmiyyətində xalqımıza münasibətdə nifrətdən doğan nitqlər, hayqırtılar, zorakılıqlar, cinayətlər baş alıb gedir. Yüz beş il əvvəl Mart soyqırımında azərbaycanlı hamilə qadının qarnını yarıb, çağanı süngüyə taxan vəhşiləşmiş daşnakla dumanlı havada yolu azıb ərazilərinə keçmiş 20 yaşlı əsgərimizi vəhşicəsinə döymələrini lentə alaraq, həmin görüntüləri sosial şəbəkədə yayan XXI əsrin azğın ermənisi arasında hansı fərqi görürsünüz? Belə davranışın sıravi haylarla yanaşı, siyasətçilər tərəfindən də törədildiyini mütəmadi olaraq izləyirik. Onların başqalarına qarşı kin-küdurət, nifrətlə dolu çıxışları iki xalq arasında bərpası mümkün olmayan, dözümsüz bir mühitin formalaşmasına gətirib çıxarıb. Bunun adı anadangəlmə qüsur, sağalmaz xəstəlikdir.

Bir millət olaraq ermənilərin psixologiyasını birmənalı xarakterizə etmək mümkün deyil. Hayların milli psixologiyası özlərini başqalarından, digər millətlərdən, ələlxüsus da qonşularından üstün tutmaq, "ari" irqdən olduqlarını xəyal etmək kimi naqis cəhətləri ilə tanınıb. Haylar beyinlərini yumuş utopik ideyaların nəticəsi olaraq elə düşünürlər ki, bu dünyada yaranan ən qədim, sivilizasiyanın adı ilə bağlı nə varsa, hamısı onlara məxsusdur. "Etnik xarakterin böhranı" kimi diaqnoza malik xəstəliyə mübtəla olan fərd, toplum nə düşüncəsinə, nə danışığına, nə də hərəkətinə nəzarət edə bilir.

Hayların ictimai şüurunda kütləvi psixoz əlamətləri var və bu vəziyyətdə qəbul edilən qərarların hamısının yanlış, anti-bəşəri, anti-humanist ruhlu olacağı şübhəsizdir. Təəssüf hissi ilə deməyə məcburuq ki, bu "kosmik etnos" Cənubi Qafqazda çoxları üçün hələ uzun müddət başağrısı olaraq qalacaq.

Biz bunu arzulamırıq. Əslində, XXI əsrin insanına yaraşmayan ifrat şovinist çıxışlar, ilk növbədə, həmin millətin başbilənlərini narahat etməlidir. Məsələnin hüquqi tərəfinə gəldikdə isə onu da deməliyik ki, Ermənistan hökuməti imzasını atdığı müvafiq konvensiyaların şərtlərinə əsasən boynuna götürdüyü beynəlxalq öhdəliklərə riayət etməli, etnik, dini mənsubiyyətə görə ayrı-seçkiliyə yol verməməli, azərbaycanlılara, bütövlükdə, Türk dünyasına qarşı nifrət siyasətindən əl çəkməlidir. Məhz bu halda onların ağır millətçilik mərəzindən qurtulmaq şansları var...

**İmran BƏDİRXANLI,**
**"Xalq qəzeti"**

# Azərbaycanın Beynəlxalq Maliyyə Korporasiyası ilə əlaqələri inkişaf edir

**İqtisadiyyat naziri Mikayıl Cabbarovun Beynəlxalq Maliyyə Korporasiyasının Avropa regionu üzrə dövlət-özəl tərəfdaşlığı proqramlarının rəhbəri Mehita Fanni ilə görüşü olub.**



Görüşdə əməkdaşlığın prioritet istiqamətləri və perspektiv layihələr barədə müzakirə aparılıb, ölkəmizin IFC ilə əlaqələrin genişləndirilməsinə önəm verdiyi vurğulanıb. Həmçinin təşkilatın biznes mühitinin təkmilləşdirilməsi, dövlət-özəl sektor tərəfdaşlığının inkişaf etdirilməsi kimi istiqamətlər üzrə ölkəmizdə reallaşdırılan layihələrə dəstəyinin əhəmiyyəti qeyd olunub.

Tərəflər əməkdaşlığın prioritet istiqamətləri, dövlət-özəl tərəfdaşlığının təşviqi sahəsində görülən işlər və perspektiv layihələr barədə müzakirə aparıblar.

**"Xalq qəzeti"**

# Söyüdlüdə istismarın müvəqqəti dayandırılması təklif edilib

**"Əgər Söyüdlüdə istismar şirkəti tərəfindən lazımi işlər görülməsə, pay bölgüsü ilə bağlı daha sərt addımların atılmasına başlanacaq".**



Bu barədə Gədəbəy rayonunun Söyüdlü kəndində monitorinqlərin aparılması və mövcud vəziyyətin qiymətləndirilməsi məqsədilə yaradılan komissiyanın rəhbəri, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev dünən keçirdiyi brifinqdə bildirib.

Nazir qeyd edib ki, Komissiya üzvlərinin bu və digər məsələlərlə bağlı tədbirləri Baş nazirlə müzakirə olunub. İyulun 13-də komissiyanın iclası olacaq. Bu sahədə görülən işlər barədə ətraflı məlumat açıqlanacaq.

Nazir bildirib ki, toksiki maddələr üçün çay məcrası yaxınlığında süni göl yaradılması aidiyyəti qurumlarla razılaşdırılmayıb. Vahid monitorinq nəzarət sisteminin qurulması ilə bağlı plan olmayıb, sionid və digər ağır metalların təsirinin minimuma endirilməsi, ətrafda iy-qoxunun aradan qaldırılması üçün vacib tədbirlər görülməyib. Göl ətrafında lazımi maneələr quraşdırılmayıb. Sanitar-mühafizə zonası müəyynələşdirilməyib, hasar çəkilməyib. Söyüdlü kəndində də şirkət tərəfindən sosial layihələr həyata keçirilməyib.

Nazir daha sonra qeyd edib ki, Gədəbəyin Söyüdlü kəndində süni anbar 2011-ci ildə tikilib. Mövcud tullantı anbarının istismar imkanlarının 3 aydan çox olmadığı, ikinci anbarın tikilməsinə razılıq olmamasını nəzərə alaraq müəssisənin işinin cari təmir və ətraf mühitinin sağlamlaşdırılması tədbirlərinin aparılması üçün dayandırılması təklif olunur. Beynəlxalq şirkətlərin monitorinqə dəvət olunması üçün danışıqlar aparılması nəzərdə tutulur.

Nöqsanların aradan qaldırılması üçün ciddi tələblər qoyulub. İstismarçı şirkət tərəfindən lazımi layihələr həyata keçirilməsə, biz daha sərt tədbirlərin görülməsinə başlayacağıq.

**"Xalq qəzeti"**

# Nazirlər Kabinetində boyukqayidish.gov.az portalının icmal təqdimatı keçirilib

**İyulun 12-də Nazirlər Kabinetində "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" ilə bağlı iclas keçirilib. Dövlət Proqramında nəzərdə tutulmuş işlər üzrə əsas icraçı orqanların rəhbərlərinin müavinlərindən ibarət məsul şəxslərin iştirak etdiyi iclasda proqramın icra vəziyyətinə nəzər yetirilib, boyukqayidish.gov.az portalının icmal təqdimatı olub.**



Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədov iclasda çıxış edərək, Vətən müharibəsində qazanılan Şanlı Qələbə nəticəsində azad olunan torpaqlarımızda irimiqyaslı bərpa-quruculuq işlərinin aparıldığını vurğuladı. R.Məmmədov qeyd etdi ki, işğaldan azad olunmuş ərazilərin postmüharibə dövründə minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması, iqtisadi fəaliyyətin, o cümlədən nəqliyyat-kommunikasiya xətlərinin bərpası istiqamətində mühüm işlər görülüb və görülür. Həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi fəallığının təmin olunmasına xidmət edir, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün sağlam bünövrə yaradır.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə qəbul olunan işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramı üzrə görülən və bundan sonra görüləcək işlər barədə məlumat verən Aparat rəhbəri bildirdi ki, bu Sərəncamla Nazirlər Kabinetinə Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasına nəzarətin və hesabatlılığın həyata keçirilməsi, eləcə də nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə ildə iki dəfə Azərbaycan Prezidentinə məlumat verilməsi tapşırılıb. Sərəncamda proqramda nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqinin və qiymətləndirilməsinin Nazirlər Kabinetinin sifarişinə əsasən, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) tərəfindən həyata keçirilməsi də qeyd olunub. Proqramın icrası üçün Nazirlər Kabinetinin 2022-ci il 30 dekabr tarixli sərəncamı qəbul edilib. Proqram çərçivəsində işlərin gedişinə nəzarətin səmərəli təmin olunması məqsədilə İİTKM-yə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə "İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair Dövlət Proqramının icrasına nəzarət və hesabatlılıq Portalı"nın formalaşdırılması tapşırılıb.

Sonra İİTKM-in icraçı direktoru Vüsal Qasımlı boyukqayidish.gov.az portalının təqdimatını etdi. Bildirdi ki, Dövlət Proqramında 6 prioritet üzrə 25 fəaliyyət istiqaməti müəyyən edilib və 188 tədbirin icrası nəzərdə tutulur. İİTKM-də "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın monitorinq və qiymətləndirilməsinin aparılmasının təmin edilməsi məqsədi ilə "Metodoloji çərçivə" hazırlanıb.

"İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair Dövlət Proqramının icrasına nəzarət və hesabatlılıq Portalı"nın işləmə mexanizmlərinin izahı və tətbiqinə dair təlimlər keçirilib və videotəlimat hazırlanıb. Hibrid formatda keçirilən təlimlərdə Dövlət Proqramının icrasında iştirak edən 44 dövlət qurumunun 200-ə yaxın səlahiyyətli nümayəndəsinə sözügedən portaldan istifadə qaydaları, şərtləri və bölmələri haqqında ətraflı məlumat verilib. Aidiyyəti qurumlar tərəfindən müvafiq məlumatlar portalda yerləşdirilir. Bu məlumatlar əsasında İİTKM tərəfindən monitorinq və qiymətləndirmələr aparılaraq nəticələri Nazirlər Kabinetinə təqdim ediləcək.

Daha sonra iclasda Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər üzrə görülən işlərin həyata keçirilməsində səmərəliliyin yüksəldilməsi və digər məsələlər müzakirə olunub.

**"Xalq qəzeti"**

# Ölümsaçan vasitələrə sipər çəkilir

**219 milyon 430 min manatlıq narkotik vasitə dövriyyədən çıxatılb. Bu barədə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupundan məlumat verilib.**

Bildirilib ki, bu ilin yanvar-iyun ayları ərzində kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində 5881 cinayət faktı aşkarlanıb.

Aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən ümumilikdə müsadirə olunmuş 4 ton 623 kiloqram 28,027 qram narkotik vasitənin və psixotrop maddənin 1 ton 517 kiloqram 650,954 qramını heroin, 2 ton 510 kiloqram 387,573 qramını marixuana, 183 kiloqram 113,261 qramını tiryək, 50 kiloqram 885,902 qramını həşiş, 247 kiloqram 7,907 qramını psixotrop maddələr, 113 kiloqram 982,43 qramını digər narkotik vasitələr təşkil edib. Həmçinin göstərilən dövr ərzində 38418 ədəd həb metadon, 8476 ədəd çətənə bitkisi, eləcə də 3 kiloqram 153,268 qram, 7631 ədəd kapsul və 953 ədəd həb güclü təsir edən maddə və 40,682 qram prekursor qanunsuz dövriyyədən götürülüb.

Hesabat dövründə Daxili İşlər Nazirliyinin təşkilatçılığı ilə və digər aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə 298,98 hektar sahədən çəkisi 147 ton 477 kiloqram 276,98 qram olan 438 min 18 ədəd yabanı halda bitmiş narkotik tərkibli bitkilər müəyyən olunaraq müvafiq qaydada məhv edilib.

Bu ilin yanvar-iyun aylarında qanunsuz dövriyyədən götürülmüş 4 ton 623 kiloqram 28,027 qram narkotik vasitələrin və psixotrop maddələrin ümumilikdə dəyəri 219 milyon 430 min manat kimi qiymətləndirilir.

**"Xalq qəzeti"**

# İlin ilk yarısında sosial-iqtisadi islahatlar uğurla icra olunub

## Əldə edilən əlavə 3 milyard manat büdcənin artan xərclərinə yönəldilib



**Bu ilin birinci yarısında ölkəmizdə sosial-iqtisadi inkişafın göstəriciləri davamlı inkişaf strategiyasının uğurla həyata keçirildiyini deməyə əsas verir. Prezident İlham Əliyevin müəyyənləşdirdiyi iqtisadi inkişaf proqramları respublikamızın dayanıqlı inkişafını reallaşdırır.**

Prezident İlham Əliyevin sədrliyi ilə 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə dövlətimizin başçısının da səsləndirdiyi fakt və rəqəmlər də bunun bariz ifadəsidir. Ölkə rəhbərinin müşavirədə vurğuladığı kimi, hesabat dövründə qeyri-neft sənayesinin 6,5 faiz, qeyri-neft sektorunun isə 3 faizdən çox artması real iqtisadiyyatın yüksələn xətlə inkişafından xəbər verir.

Statistik göstəricilərdən söz düşmüşkən, bəzi rəqəmləri də xatırlatmaq istərdik. Belə ki, bu ilin yanvar-iyun aylarında Azərbaycanda əsas kapitala 7 milyard 148 milyon manat və yaxud ötən ilin eyni dövrü ilə müqayisədə 10,4 faiz çox vəsait yönəldilib. Məlumata görə, son 1 ildə neft-qaz sektoruna investisiyalar 21,4 faiz, qeyri neft-qaz sektoruna investisiyalar isə 4,2 faiz artıb. Bu dövrdə istifadə olunan vəsaitin 4 milyard 322 milyon manatı və yaxud 60,5 faizi məhsul istehsalı sahələrinə, 2 milyard 426 milyon manatı və yaxud 33,9 faizi xidmət sahələrinə, 398,8 milyon manatı və yaxud 5,6 faizi isə yaşayış evlərinin tikintisinə sərf olunub.

Yarım il ərzində isə əsas kapitala yönəldilmiş məbləğin 5 milyard 208 milyon manatını və yaxud 72,9 faizini daxili vəsaitlər təşkil edib, 5 milyard 48 milyon manatı və yaxud 70,6 faizi isə bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub.

İlin ilk yarısında qeyri-neft sektorunun inkişafı ilə bağlı islahatlar dövlət büdcəsi gəlirlərinin artmasına da müsbət təsir göstərib. 2023-cü ilin büdcəsi manat ifadəsində müstəqillik ilinin ən böyük büdcəsi kimi diqqət çəkib. Hesabat dövrünün ilk 4 ayında büdcəyə əlavə olaraq 2 milyard 400 milyon manatın daxil olması fiskal gəlir və xərclərimizə dürüstləşmənin edilməsinə imkan yaradıb. Bu, büdcəyə əlavə 3 milyard 50 milyon manat cəlb edilməsinə və bununla da Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması, milli təhlükəsizliyimizin daha da gücləndirilməsi üzrə vəsaitlərin artırılmasına gətirib çıxarıb.

İşğaldan azad olunan ərazilərimizin bərpasına ayrılan vəsait cari ilin sonunadək 12 milyard manata çatacağı proqnozlaşdırılıb. Həmin vəsaitin 5,5 milyard manata yaxın hissəsinin də bu il xərclənəcəyi planlaşdırılıb.

Mütəxəssislərin sözlərinə əsasən, 2026-cı ilədək Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpasına ayrılan vəsait 20 milyard manatdan çox olacaq. Bu qədər vəsait isə Böyük Qayıdış proqramının daha sürətlə icrasına imkan yaradacaq.

Hesabat dövründə ölkənin strateji valyuta ehtiyatları da artıb. Mərkəzi Bankın rəsmi valyuta ehtiyatları iyun ayına 9,1 milyard ABŞ dollarına bərabər olub. Tədiyyə balansının cari əməliyyat üzrə profisiti 10 milyard dollara yaxın olub. Strateji valyuta ehtiyatlarının artımı, tədiyyə balansının cari əməliyyatlar balansının profisiti cari ildə makroiqtisadi sabitliyi təmin edib və manatın məzənnəsinin sabitliyini dəstəkləyib. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiyanın 2022–2025-ci illər üzrə yenilənməsi çərçivəsi" sənədində nəzərdə tutulan xarici dövlət borcu ilə bağlı hədəf göstəricisinə bu il nail olunub. Belə ki, 6,7 milyard ABŞ dolları olan xarici dövlət borcumuz ümumi daxili məhsulumuzun təxminən 10 faizini təşkil edir.

Hesabat dövründə büdcəyə daxilolmalar da artıb. Məsələn, bu ilin yanvar-iyun aylarında Dövlət Gömrük Komitəsinin (DGK) xətti ilə büdcə daxilolmaları 3 milyard 75,366 milyon manat təşkil edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 21,1 faiz çox olub.

Xatırladaq ki, son 1 ildə gömrük rüsumları üzrə daxilolmalar 20,4 faiz artaraq 7 milyard 68 milyon manat, əlavə dəyər vergisi (ƏDV) üzrə daxilolmalar 21,3 faiz artaraq 2 milyard 186,168 milyon manat təşkil edib.

Bütün bu uğurlu göstəricilər ardıcıl və sistemli surətdə həyata keçirilən şaxələndirmə siyasəti, sahibkarlıq mühitinin yaxşılaşdırılması üzrə görülən tədbirlər ölkə sənayesinin yeni inkişaf mərhələsinə daxil olmasına zəmin yaradıb. Sənayenin inkişafına dair Dövlət Proqramı təsdiq edilib və icrasına başlanılıb. Ənənəvi sənaye sahələri ilə yanaşı, Azərbaycan iqtisadiyyatı üçün yeni olan kosmik, müdafiə, gəmiqayırma, alternativ enerji və digər sahələr yaradılıb. Qeyri-neft sənayesinin inkişaf etdirilməsində müasir istehsal infrastrukturuna malik sənaye parklarının və sənaye məhəllələrinin yaradılmasına üstünlük verilib. Bu cür sənaye kompleksləri ölkənin ixrac qabiliyyətinin, idxalı əvəz edən məhsulların istehsalının artırılması baxımından xüsusilə əhəmiyyətlidir.

Azərbaycanda 2004-cü ildən başlayaraq, həyata keçirilən regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası nəticəsində bölgələrdə geniş quruculuq və abadlıq işləri görülüb, çoxsaylı infrastruktur layihələri həyata keçirilib, müxtəlif profilli istehsal müəssisələri, sosial obyektlər fəaliyyətə başlayıb və minlərlə yeni iş yeri açılıb. Bütün bunlar hər bir rayonun, kəndin və qəsəbənin simasını dəyişməklə bərabər, əhalinin rifah halının yüksəldilməsinə, sosial problemlərinin həllinə rəvac verib.

***Vaqif BAYRAMOV,*** 
***"Xalq qəzeti"***

### Ekspert rəyi

**Günay QULİYEVA,**
**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin iqtisadi təhlil şöbəsinin müdiri**



Çoxsaylı mənfi şokların təsiri ilə mübarizə aparan qlobal iqtisadiyyatın həssas olduğu bir dövrdə Azərbaycan iqtisadiyyatında artım müşahidə olunub. İqtisadiyyatın qeyri-neft-qaz sənayesində artım neft–qaz sənayesindəki artımı üstələyib. Bu sahədə əlavə dəyər 2023-cü ilin birinci yarımilliyində 6,5 faiz artıb. Ümumi olaraq qeyri-neft sektorunda 3 faizdən çox artım müşahidə olunub.

Hesabat dövründə ölkənin sosial-iqtisadi inkişaf proqnozlarında neftin qiyməti hər barel üçün 50 ABŞ dolları nəzərdə tutulduğu halda, 2023-cü ilin ilk yarısında "Azeri Light" (CIF) markalı neftin bir barelinin orta qiyməti 82,84 ABŞ dolları təşkil edib. Bu artımla yanaşı, vergi və gömrük orqanlarında aparılan islahatlar və şəffaflığın təmin edilməsi nəticəsində 2023-cü ilin yanvar-may ayları ərzində vergi yığımları ötən illə müqayisədə 45 faiz və ya 2,6 milyard manatdan çox artıb. Bu isə öz növbəsində 2023-cü ilin ilk 6 ayında büdcə profisiti yaratmaqla büdcəni rekord həddə çatdırıb.

Cari ilin ötən dövrü ərzində dövlət büdcəsinin gəlirlərinin proqnozlara qarşı əhəmiyyətli dərəcədə çox olması bu ilin dövlət büdcəsində əlavə maliyyə resurslarının yaranmasını və onların yenidən bölünməsini gündəmə gətirib. Bununla bağlı 16 iyun 2023-cü il tarixində "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə Qanun qəbul edilib. Sənədə əsasən, Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin təsdiq olunmuş 33353,3 milyon manat məbləğində xərcləri 3271,5 milyon manat və ya 9,8 faiz artırılaraq 36624,8 milyon manata çatdırılıb. Dürüstləşmə ilə 2023-cü il üçün təsdiq olunmuş büdcəyə 3 milyard manatdan çox vəsait əlavə olunub.

Əlavə vəsaitin əhəmiyyətli hissəsi Azərbaycan Respublikasının işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən genişmiqyaslı tikinti, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi ilə bağlı xərclərə, müdafiə xərclərinə yönəldilib. Əlavə olunan 3 milyard manatın 1,8 milyard manatı işğaldan azad olunmuş ərazilərimizdə bərpa-quruculuq işlərinə, 1,1 milyard manatı isə hərbi gücümüzün artırılmasına yönəldilib. Dövlət büdcəsinə edilən son dəyişikliklərlə işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərinə ayrılan vəsait 4,8 milyard manata, müdafiə və milli təhlükəsizlik xərcləri isə 6,05 milyard manata qaldırılıb. Bu isə hökumətin əsas prioritetinin əhalinin həmin ərazilərə qısa müddətdə geri qaytarılması və ölkə təhlükəsizliyinin təmini olmasını göstərir.




# TAP-ın Avropada bazarı genişlənir

## Gələcəkdə kəmər "köhnə qitə"yə ildə 20 milyard kubmetr qaz çatdıracaq

**Azərbaycanın təşəbbüsü və fəal iştirakı ilə real fəaliyyət sahəsinə çevrilmiş Cənub Qaz Dəhlizi Avropanın enerji xəritəsinin zənginləşdirilməsinə mühüm töhfələr verir. Hazırda "Şahdəniz" yatağından hasil olunan qaz sözügedən dəhlizin mühüm seqmentləri sayılan Trans-Anadolu (TANAP) və Trans-Adriatik (TAP) kəmərləri, eləcə də interkonnektorlar (birləşdirici kəmərlər) vasitəsilə Avropa bazarlarına çatdırılır.**

Son illər Avropa məkanı təbii qaza olan tələbatının ödənilməsində ölkəmizi əsas tədarük bazarı kimi görür. Bu isə Cənub Qaz Dəhlizinin sonuncu seqmenti sayılan TAP-ın genişləndirilməsini, eləcə də yeni interkonnektorların tikintisini labüd edir. Trans-Adriatik Boru Kəməri layihəsinin icraçı direktoru Luka Skyepatti bu yaxınlarda mediaya müsahibəsində adıçəkilən kəmərin ötürücülük imkanlarının tam yüklənməyə yaxın olduğunu bildirib.

O, 2023-cü ilin ilk beş ayı ərzində TAP vasitəsilə 4,5 milyard kubmetrdən çox qaz nəql edildiyini vurğulayıb."-TAP-ın indiki uzunmüddətli imkanları (təqribən ildə 10 milyard kubmetr) 2013-cü ildə imzalanmış qaz nəqli barədə sazişə əsasən, artıq "Şahdəniz" yatağından qaz tədarükçüləri arasında bölüşdürülüb. TAP qısamüddətli bronlama üçün ilkin ötürücülük imkanlarının təqribən 5 faizini ayırıb. Bu artıq bron edilmiş imkanlara əlavədir", – deyə Luka Skyepatti qeyd edib.

İcraçı direktor ötən il TAP-ın özünü fəal operator kimi göstərərək bazara təklif olunan ötürücülük qabiliyyətinin maksimum artırılması üçün boru kəmərinin istismar şərtlərindən istifadə etdiyini diqqətə çatdıraraq 2022-ci ildə adıçəkilən kəmərlə faktiki olaraq İtaliyaya təqribən 10 milyard kubmetr qaz nəql olunduğunu bildirib. Bu isə 2021-ci illə müqayisədə təqribən 3 milyard kubmetr və ya 40 faiz artım deməkdir. Onun sözlərinə görə, bununla da, 2022-ci ilin ikinci yarısında Azərbaycan həmişəlik İtaliyanın Əlcəzairdən sonrakı ikinci əsas qaz tədarükçüsünə çevrilib.

L.Skyepatti 2023-cü ildə isə TAP vasitəsilə daşımaların həcminin bazardakı tələbatdan asılı olacağını əlavə edib. Yeri gəlmişkən, cari ilin ikinci rübündə adıçəkilən kəmər vasitəsilə İtaliyaya 2,2 milyard kubmetr qaz nəql olunub. Bununla da, TAP istismara verildikdən sonra boru kəməri ilə bu ölkəyə nəql olunan qazın həcmi 21 milyard kubmetrə çatıb. Bütövlükdə isə, ötən müddətdə boru kəməri ilə 25 milyard kubmetr qaz nəql edilib. Göründüyü kimi, ötən iki il yarım ərzində Avropa bazarına çıxarılan "Şahdəniz" qazının 84 faizi İtaliyanın payına düşüb. L.Skyepattinin bildirdiyinə görə, Trans-Adriatik Boru Kəməri 2022-ci ildə İtaliyada qaz istehlakının 15 faizini qarşılayıb.

İtaliyanın dayanıqlı enerji inkişafı üzrə milli fəaliyyət planında Trans-Adriatik Boru Kəməri ilə bağlı maraqlı məqamlar yer alıb. Belə ki, sözügedən mənbədə TAP İtaliyanın enerji sistemi üçün lazımi infrastruktur kimi dəyərləndirilir. "Xəzər dənizindən Yunanıstan və İtaliya vasitəsilə Avropa İttifaqına qaz nəql edən TAP və onunla əlaqəli şəbəkələr vacibdir",–sənəddə deyilir. Plana əsasən, xüsusən tələbat ən yüksək həddə olduqda və bərpaolunan enerji mənbələri səbəbindən istehsal aşağı səviyyəyə düşdükdə də qaz əvvəlki kimi İtalyianın milli enerji sistemi üçün əvəzedilməz rol oynayacaq.

Xatırladaq ki, Azərbaycan qazının Cənub Qaz Dəhlizi vasitəsilə Avropaya nəqlinə 2020-ci il dekabrın 31-də başlanılıb. Bununla da, ölkəmiz tarixdə ilk dəfə öz təbii qazını boru kəmərləri ilə Avropa bazarına çıxarmağa nail olub. Eyni zamanda, dünyada təbii qazın ən iri idxalçısı olan Avropa bazarına birbaşa çıxışla Azərbaycan, həm də öz ixrac imkanlarını şaxələndirib. Elə Cənub Qaz Dəhlizinin Avropa seqmenti olan TAP vasitəsilə hər il İtaliyaya 8 milyard kubmetr, Yunanıstan və Bolqarıstanın hər birinə isə bir milyard kubmetr həcmində qaz nəqli olunması da məhz ixrac infrastrukturunun şaxələndirilməsinin nəticəsidir.

Məlum olduğu kimi, illik ötürücülük qabiliyyəti 10 milyard kubmetr təşkil edən TAP-ın yeni borular çəkməyə ehtiyac olmadan mərhələli şəkildə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulur. Elə TAP layihəsinin icraçı direktoru Luka Skyepatti də "Dayanıqlı gələcək" forumundakı çıxışında qeyd edib ki, kəmər öz ötürücülük imkanlarını mərhələli şəkildə 20 milyard kubmetrədək genişləndirə bilər. "Biz artıq genişləndirmənin birinci mərhələsini başlatmışıq və 2026-cı ildən əlavə olaraq 1,2 milyard kubmetr qaz əlçatan olacaq", – deyə o, əlavə edib.

***Mirbağır YAQUBZADƏ,*** 
***"Xalq qəzeti"***

### Ekspert rəyi

**Elman İSKƏNDƏROV,**
**texnika elmləri doktoru, professor**



Azərbaycan qazını Avropa bazarlarına çıxaran Trans-Adriatik Qaz Boru Kəməri (TAP) layihəsi həm ölkəmiz, həm də region üçün mühüm əhəmiyyətə malikdir. 10 il əvvəl Xəzər regionunu Avropa ilə birləşdirən TAP-ın çəkilməsindən söhbət gedirdisə, indi bu kəmərin genişləndirilməsi ətrafında dah çox danışılır. Bu da Azərbaycanın zəngin qaz ehtiyatlarına malik olması, eləcə də ölkəmizin etibarlı enerji tərəfdaşı kimi etimad qazanması ilə bağlıdır. Təsadüfi deyil ki, son zamanlar Avropa İttifaqının, eləcə də müxtəlif ölkələrin rəsmi nümayəndələri Azərbaycanın "köhnə qitə"nin enerji təminatına verdiyi töhfələri birmənalı olaraq yüksək qiymətləndirirlər.

Beynəlxalq Enerji Agentliyinin məlumatına görə, 2022-ci və 2023-cü ilin ötən dövrü ərzində TAP vasitəsilə Azərbaycandan qaz tədarükü əvvəlki illə müqayisədə 15 faiz artaraq 8 milyard kubmetr təşkil edib. Ümumilikdə, Azərbaycan Avropaya qaz tədarükünə başladığı 2020-ci il dekabrın 31-dən indiyədək Qaz Dəhlizinin Avropa seqmenti olan TAP vasitəsilə, ümumilikdə, 22 milyard kubmetrdən artıq qaz nəql olunub. Cari ildə isə ölkəmiz Avropaya 12 milyard kubmetr qaz ixrac etməyi planlaşdırır.

Avropanın qaza olan tələbatının getdikcə artdığı indiki şəraitdə isə bu, son hədd sayıla bilməz. Təkcə onu qeyd etmək kifayətdir ki, qarşıdakı illərdə Azərbaycan Avropanın 10-dək ölkəsinə qaz ixrac etməyi planlaşdırır. Buna isə TAP-ın mövcud nəqletmə gücünün iki dəfəyədək artırılması, eləcə də Avropa ölkələrinin qaz şəbəkələrini sözügedən kəmərlə əlaqələndirən interkonnektorların inşası ilə nail olmaq mümkündür. Elə bu il aprelin 25-də Sofiyada "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan) və "Eustream" (Slovakiya) və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı imzalanmış Anlaşma Memorandumu" da məhz bu məqsədə xidmət edir.

Yeri gəlmişkən, Azərbaycandan Avropaya əlavə qaz tədarükünü nəzərdə tutan "Həmrəylik halqası" təşəbbüsü digər ölkələr üçün də açıqdır. Sözügedən təşəbbüsün reallaşması isə region ölkələrinin əlavə olaraq təbii qazla təmin edilməsinə imkan yaradacaq.

# Ölkəmizdə ixrac idxalı ikiqat üstələyir

## Xarici ticarətdə 6 milyard dollara yaxın müsbət saldo yaranıb

**Bu ilin yanvar–may aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 185 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirib. Hesabat dövründə 106 ölkəyə məhsul ixrac olunub, 175 ölkədən isə Azərbaycana müxtəlif mallar gətirilib.**



Dövlət Statistika Komitəsinin məlumatına görə, gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2023-cü ilin yanvar-may aylarında ölkənin xarici ticarət dövriyyəsi 19 milyard 602,3 milyon ABŞ dolları təşkil edib.

Ticarət dövriyyəsinin 12 milyard 763,6 milyon dollarını və ya 65,1 faizini ölkədən ixrac olunmuş məhsulların, 6 milyard 838,7 milyon dollarını (34,9 faizini) isə idxal məhsullarının dəyəri təşkil edib. Nəticədə, ölkəmizin ticarət dövriyyəsində 5 milyard 924,9 milyon dollar məbləğində müsbət saldo yaranıb.

Yeri gəlmişkən, 2022-ci ilin yanvar–may ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 8,2 faiz azalsa da, real ifadədə 2,3 faiz artıb. İdxal real ifadədə 11,1 faiz artıb, ixrac isə 0,5 faiz azalıb.

***"Xalq qəzeti"***

# Ermənistana həm xəbərdarlıq, həm də şans

(əvvəli 1-ci səhifədə)

Ancaq biz bu gün də beynəlxalq hüquq prinsiplərinin işləmədiyini görürük. Ermənistanla sülh gündəliyi müstəvisində buna şahidik. İrəvan çeşidli siyasi maxinasiyalara baş vurur, dünyadakı ermənipərəst qüvvələr isə beynəlxalq hüquqla interpretasiya yolu tutaraq, reallıqlara meydan oxumağa çalışır, Bakını haqlı mövqeyindən döndərməyə cəhd göstərirlər.

Bəli, Azərbaycan Prezidenti mövcud dünya düzənindəki tendensiyalara məhz bunlara görə də diqqət yetirir: "Ancaq biz görürük ki, dünyada qaydalar tamamilə pozulub, davranış qaydalarına, beynəlxalq hüquqa əməl edilmir. Biz, demək olar ki, bunu hər gün görürük, hər gün. Böyük dövlətlər, hansılar ki, beynəlxalq hüququn təminatçısı rolunu öz üzərinə götürüblər, birinci onlar bu hüququ pozurlar və sonra da onu əsaslandırırlar. Ölkələr deyəndə mən bütün böyük ölkələri nəzərdə tuturam. Necə deyərlər, hərəsi öz xətti ilə ya konvensiyaları pozur, ya beynəlxalq hüquq normalarını pozur, ya da oturuşmuş beynəlxalq davranış qaydalarını pozur və bunu heç gizlətmir də. Ona görə, əlbəttə ki, biz, ilk növbədə, özümüzü qorumaq üçün, öz müstəqilliyimizi qorumaq üçün, seçimimizi qorumaq üçün, həyat tərzimizi qorumaq üçün, ərazi bütövlüyümüzü qorumaq üçün daha güclü olmalıyıq".

Göründüyü kimi, dövlətimizin başçısı güc amilini qabardır. Gücümüz həm də ədalətimizin, həqiqətlərimizin təminat vasitəsidir. Nəzərə alaq ki, 44 günlük müharibədən sonra nə əldə etmişiksə, gücün sayəsində əldə etmişik. Sadə bir misal çəkək. Ermənistanda 2021-ci ilin növbədənkənar parlament seçkiləri öncəsi hakim "Vətəndaş sazişi" partiyası özünün seçki platformasına minimum Şuşa və Hadrutun geri qaytarılacağına dair bənd daxil etmişdi. Hazırda məsələ unudulub, adını tutan yoxdur. Çünki Azərbaycan ötən müddətdə bir neçə dəfə Ermənistana gücünü göstərib. İmkan verməyib ki, İrəvan 44 günlük müharibə zamanı üzləşdiyi dəhşəti unutsun.

Əslində, başqa yol da yoxdur. Azacıq zəiflik Ermənistanı və havadarlarını iştaha salır. Elə bilirlər ki, Bakıya qarşı tutarlı əks-tədbirlər həyata keçirə, müharibə zamanı itirdikləri mövqeləri bərpa edə bilərlər. Onu da nəzərə alaq ki, onlar hətta azacıq üstünlük qazandıqlarını hiss etsələr, dayanmayacaqlar, yeni iddialara düşəcəklər.

Azərbaycan ictimaiyyəti xəstə erməni təfəkkürünə bələddir. 44 günlük müharibədən sonra biz həmin təfəkkürdən irəli gələn ən rəngarəng və ağlagəlməz metodların işə salındığını gördük və əmin olduq ki, Cənubi Qafqaz coğrafiyasında varlığımızı davam etdirmək istəyiriksə, heç bir halda, zəifləməməliyik.

Məhz buna görə də Prezidenti İlham Əliyev 44 günlük müharibədən sonrakı prioritetlərdən söz açarkən, diqqəti hərbi quruculuq məsələlərinə yönəldir: "İkinci Qarabağ müharibəsi başa çatandan sonra biz dayanmadan bu istiqamətdə çox ciddi addımlar atmışdıq və mən bunu artıq bildirmişəm, bir də demək istəyirəm, bu gün Azərbaycan Silahlı Qüvvələri daha böyük hərbi potensiala malikdir. Həm döyüş qabiliyyəti, həm silah və texnika ilə təchizat baxımından daha da güclü olacağıq, çünki bu proses dayanmır və dayanmamalıdır. Mən demişəm, iki istiqamət üzrə – hərbi potensial və azad edilmiş torpaqların bərpasına nə qədər vəsait lazımdır biz o qədər də ayıracağıq".

***

Əlbəttə, beynəlxalq hüquq işləmirsə, bu, o demək deyil ki, durumun qarşısında acizlik göstərməliyik. Əslində, güc faktoru dirənişin özüdür. Ancaq məsələ yalnız gücdə də deyil. Güc üçün baza da formalaşmalıdır. Müasir beynəlxalq aləmdə başlıca rolu güc və düşüncənin vəhdəti, hadisə və prosesləri düzgün qiymətləndirmək amili oynamaqdadır. Kimsə, yaxud kimlərsə ədalətsizdirsə, onun qarşısına ədalətsizliklə çıxmaq olmaz.

Deməli, ədalət platforması yaratmaq lazımdır. Azərbaycanın ədalət platforması isə Qoşulmama Hərəkatıdır. Bu hərəkat Prezident İlham Əliyevin təbirincə desək, bel bağlamalı olduğumuz müstəvidir. Həm də ona görə ki, QH beynəlxalq təşkilatların qərarlarına, qətnamələrinə məhəl qoyulmamasının qarşısını alan qurumdur: "Mənim uzun illər dediyim sözlər bu gün əyani şəkildə özünü büruzə verir. Dünyanın müxtəlif yerlərində beynəlxalq hüquq işləmir. Beynəlxalq hüquqa, beynəlxalq təşkilatların qərarlarına, qətnamələrinə bel bağlamaq olmaz. Biz həmişə hüququn tərəfdarı idik, o cümlədən beynəlxalq hüququn. Biz həmişə ədalətin tərəfdarı idik. Bu gün də ədalətin və beynəlxalq hüququn tərəfdarıyıq və beynəlxalq müstəvidə bu mövqeyi müdafiə edirik. Həm bir ölkə kimi, həm də 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatının sədri kimi və nazirlər səviyyəsində son toplantı bir daha onu göstərdi".

***

Bir daha dövlətimizin başçısının 11 iyul tarixli müşavirədəki çıxışında ifadəsini tapan güc faktoru üzərinə qayıdaq. Ona görə ki, burada gücümüz milli kimliyimizi, milli ləyaqətimizi qorumağımızın başlıca düsturu kimi çıxış edir. Onu da vurğuladıq ki, güclü olmaq başqadır, ondan düzgün istifadə etmək, ondan zamanında yararlanmaq da bir başqa. Bu mənada Azərbaycan liderinin artıq zərb-məsələ çevrilmiş fikri var: Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm.

Təhlillərimizə əsasən qətiyyətlə söyləyə bilərik ki, Azərbaycan Prezidentinin fikrinə nəinki ölkəmizdə, elə Ermənistanın özündə də son dərəcə ciddi yanaşılır. Hazırda Ermənistan cəmiyyətindəki nisbətən ağıllı, avantürizmi deyil, reallığı qiymətləndirən bəzi azsaylı şəxslər bu məqamın üzərində dayanır, hazırkı duruma qiymət verirlər. Əlbəttə, onların səsi ənənəvi ura-patriotların səslərindən az çıxmaqdadır.

Şüvən ritorikasına əsaslanmış başıpozuqların səslərinin daha çox çıxmasına, reallıq hissini itirmişlərin öndə olmalarına görədir ki, hazırda Ermənistandakı siyasi böhranı daha da dərinləşdirməkdədir. Belə nəticəyə də gəlmək mümkündür ki, böhranı dərinləşdirən həm də Azərbaycanın əzmkarlığı, prinsipiallığıdır. Bu vəziyyəti yaradan isə dövlətimizin başçısıdır.

Bəli, Azərbaycanın dirənişi Ermənistanın yeni fəlakətlərə hamiləliyi deməkdir. Hayastan hazırda, obrazlı desək, sancı çəkməkdədir. Ölkəmiz isə qətiyyətini reallıqdan götürür, qüdrətini artırır.

Dünya Prezident İlham Əliyevin vurğuladığı kimi, güc və qüdrətlə hesablaşır. Son iki il yarım ərzində bir neçə dəfə gücümüzü müxtəlif ünvanlara göstərmişik və heç kim iradəmizə təsir göstərə bilməyib. "Əksinə, bizə qarşı tuşlanmış bütün oxları sındırıb öz ləyaqətimizi qoruya bilmişik və maraqlarımızı qoruya bilmişik. Daha əlavə sözlərə ehtiyac yoxdur, hər şey göz qabağındadır. Necə deyərlər, dərinə getmək istəmirəm, amma bunu artıq hər kəs görür, görməlidir və bilməlidir ki, Azərbaycanla hədə-qorxu, ultimatum dili ilə heç kim danışa bilməz və hesab edirəm ki, bundan sonra belə cəhdlər də olmayacaq", – deyən Azərbaycan Prezidentinin mövqeyindəki qətiyyət, həqiqətən qürur və fəxarət doğurur. Dövlətimizin



başçısı necə ki, 44 günlük müharibə dönəmindəki müsahibələri, xalqa müraciətləri ilə gücümüzə əminlik gətirirdi, yenə də eyni hissi yaradır və yaşadır.

Bir qədər əvvəl bu barədə söz açmışdıq. El məsəlinə əsaslanaraq bildirmişdik ki, əsrlər boyu xalqımızın başına olmazın müsibətlər gətirilib – deportasiyalarla, işğallarla və onların gətirdiyi məhrumiyyətlərlə üz-üzə, baş-başa qaldığımız, dərdimizi içimizə saldığımız zamanlarımız olub. Ancaq ruhdan düşməmiş, mübarizə aparmışıq. Və nəhayət, müstəqilliyimizə qovuşmuşuq.

Lakin görmüşük ki, əsas olan müstəqilliyi əldə etmək deyil, onu qoruyub saxlamaqdır. Müstəqilliyimizi qoruyan isə ulu öndər Heydər Əliyevdir. Heydər Əliyev dühasının siyasi mirasını özündə yaşadan Prezident İlham Əliyev ümummilli liderin idarəçilik əzminə yeni zənginlik motivləri qazandırdı. Haqqında söz açdığımız güc də bu zənginliyin məhsulu kimi meydandadır.

Ona görə də dövlətimizin başçısı struktur islahatlarının, idarəetmə və özünü müdafiəetmə qabiliyyətinin artırılmasının hədəflərindən söz açarkən, keçmişin acı təcrübələrinin təkrarlanmaması naminə sanki müqavimət aşılayır. Nəinki aşılayır, eyni zamanda bunun üçün mühit də formalaşdırır. Həmin mühitin dərinləşməsinin vacibliyinə dair çağırış səsləndirir: "...Biz elə güc yaradırıq ki, yerləşdiyimiz coğrafiyada özümüzü tam əmin hiss edə bilək. Bu gün də belədir, amma daha böyük işlər də görülməlidir. Yenə də deyirəm, bu sahə elə sahədir ki, burada az danışmaq, çox iş görmək lazımdır. Ona görə bundan artıq demək istəmirəm. Hər halda, Azərbaycan xalqı əmin ola bilər ki, bizim təhlükəsizliyimiz etibarlı əllərdədir. Azərbaycan xalqı bundan sonra da rahat yaşaya bilər və yaşamalıdır".

Bəli, Azərbaycan xalqı illərlə, onilliklərlə çəkdiyi çətinliyin təzminatı və mükafatı olaraq bundan sonra rahat və təhlükəsizlik şəraitində yaşamalıdır. Biz bunun başlıca şərti kimi Ermənistanla münasibətlərə diqqət yetiririksə, erməni xalqı, Ermənistan hakimiyyəti və onun xaricdəki havadarları, erməni lobbi və diaspor təşkilatları da anlamalıdırlar ki, Azərbaycan özünü təhlükəsiz hiss etmədikcə, onlara da rahatlıq yoxdur və olmayacaqdır. Ötən müddətdə diktə etdiyimiz ən böyük reallıq da budur.

Ölkəmizin iradəsi olmadan bölgə ilə bağlı nəhəng layihələr reallaşmadığı kimi, bu məsələ də oxşar prinsipial məzmuna malikdir. Ancaq respublikamız bölgənin inkişafını və tərəqqisini istəyir. Biz yaşadığımız Cənubi Qafqaz regionuna vahid orqanizm kimi baxırıq. Hesab edirik ki, bu orqanizmin funksionallığı tam təmin edilməlidir. Belədə ortaya sual çıxır: mövcud təminatda bölgənin erməni varlığı hansı statusda çıxış etmək niyyətindədir? Dövlət kimi, yaxud malik olduqlarını itirmiş, vaxtilə bölgəmizdə məskunlaşdıqları qiyafədəki bir qövm olaraq? Seçim Ermənistanındır. Hər bir halda qatar yola çıxıb. Ona minib-minməmək onların öz işidir.

Əlbəttə, Azərbaycan Ermənistanın gələcək inkişaf platformasında yer almasını istəyir. Bu, xeyirxah, humanist niyyətimizdən irəli gələn məziyyətdir. Buna görə dövlətimiz müharibədə qalib tərəf olmasına baxmayaraq, Ermənistana əl uzadıb. Cənab İlham Əliyev dəfələrlə bu barədə söz açıb. 11 iyul müşavirəsində də məsələyə yer ayırdı və bildirdi: "Bizim qarşıda duran vəzifələrimizdən biri, təbii ki, Ermənistanla olan münasibətlərimizdir. Burada, bu sahədə, yəni, nəticə təkcə bizdən asılı deyil. Halbuki bizim siyasətimiz Ermənistan tərəfini də vacib addımların atılmasına sövq edir. Ancaq, əlbəttə ki, bu, qarşılıqlı fəaliyyətdir".

Dövlətimizin başçısının bildirdiyi kimi, siyasətimiz Ermənistanı vacib addımların atılmasına sövq edir və bundan sonra da edəcəkdir. Ancaq nəzərə alaq ki, bütün bu sövqetmələr gələcək inkişaf üçün zəruri sayılan səmimiyyət və etimad mühitinin formalaşmasına maneçilikdir. Yəni, bizim perspektivdə Ermənistana etimad bəsləmək, inanmaq limitimiz tükənməyə doğru gedir. Xəstə erməni cəmiyyəti isə onu anlamaq istəmir ki, bu, eyni zamanda, Ermənistanın dövlət kimi mövcudiyyət imkanlarının azalmasıdır.

Buna görə İrəvan avantürist meyilləri kənara atmalı, ölkəmizin haqlı mövqeyini qəbul etməli, razılaşmalı, bölgədəki yeni reallıqlarla hesablaşmalıdır. Prinsipcə, onun başqa yolu da yoxdur. Daha doğrusu, yol sülh yoludur. Əlbəttə, heç kəs ölkəmizin sülhəməcburetmə haqqını əlindən ala bilməz. Əslində, ötən müddətdə bunu bir neçə dəfə reallaşdırmışıq. Yəni, sülhə məcbur etmişik və yenə də bacarırıq. Ancaq hələlik Azərbaycan Prezidenti vurğulayır: "Bizim sülh danışıqları ilə bağlı mövqeyimiz aydındır, məntiqlidir, beynəlxalq hüquqa əsaslanır. Hesab edirəm ki, bu prinsiplə, beynəlxalq hüququn norma və prinsipləri əsasında sülh müqaviləsi imzalana bilər. Hər halda mən hesab edirəm ki, belə imkanlar var. Son danışıqlar raundları və bir neçə gündən sonra nəzərdə tutulan yüksək səviyyəli təmaslar bir məqsədi güdür ki, biz sülh anlaşmasına daha da yaxınlaşaq. Biz bunu arzulayırıq, bunu təşəbbüskar kimi irəli sürmüşük. Ancaq yenə də deyirəm, hər şey bizdən asılı deyil, qarşı tərəf də buna hazır olmalıdır və sözdə ifadə etdiyi prinsipləri kağız üzərinə də keçirməlidir".

Bəli, Ermənistan sözdə ifadə etdiyi prinsipləri kağız üzərinə keçirməlidir. Daha doğrusu, ölkənin rəhbərliyi bunun üçün özündə qətiyyət tapmalıdır. Ən əsası isə səmimiyyət nümayiş etdirməli, Azərbaycanla münasibətlərin normallaşmasının ahənginə uyğun davranış göstərməlidir. Baş nazir Nikol Paşinyanın özü və komandası danışıqlar prosesinin mahiyyətinə xələl gətirən addımların atılmasından uzaq duraraq, siyasi spekulyasiyalardan daşınmalıdır. Ermənistan hakimiyyəti düşünməməlidir ki, mövcud istiqamətdəki hansısa qeyri-adekvat gediş onun üçün uğur gətirə bilməz. Çünki, belə demək mümkünsə, uğur iksiri Azərbaycanın əlindədir. İrəvan isə həmin iksirdən yalnız dadıb xoşbəxt ola bilər. Söhbət heç də ondan getmir ki, ölkə buna məhkumdur, bu, sadəcə, erməni varlığının mahiyyət düsturu baxımından ona çatacaq ən böyük haqdır. O haqdan başqa nəyəsə iddia etmək isə divara kəllə vurmaq effekti yaradan haldır. Ermənistan başını-gözünü dağıtmaq istəyirsə, buyursun.

Ancaq Prezident İlham Əliyevin fikirlərindən anlaşılan budur ki, Ermənistanda qeyd etdiyimiz acınacaqlı aqibəti proqnozlaşdıran, bunun qarşısını almaq istəyən qüvvələr də yox deyil. Yəqin, elə buna görə də dövlətimizin başçısı son müsbət məqamlardan biri kimi qarşı tərəfin mövqeyində müsbətə doğru hərəkətin olduğundan söz açır. Əlbəttə, ölkəmizin lideri bu fikrə gələrkən, indiyədək keçilmiş yolla müqayisələr də apararaq rəyə gəlir: "Əgər keçən ilin oktyabrında Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və sərhədlərini qəbul etmişdirsə, bu ilin may ayında daha irəli gedərək artıq Azərbaycan ərazisinin parametrlərini də, o cümlədən Qarabağ və anklav kəndlərimiz daxil olmaq şərtilə rəsmən tanıyıb. Bu, müsbət hal kimi qiymətləndirilməlidir. İndi sıra gəlib çatıb ki, eyni sözlər kağız üzərində də öz təsdiqini tapsın, imzalar atılsın və münasibətlər yaradılsın. Hər halda biz bu istiqamətdə öz səylərimizi davam etdirəcəyik".

***Ə.CAHANGİROĞLU,***
***"Xalq qəzeti"***

# Abu-Dabi iddia, Tehran etiraz edir

## *Körfəzdəki 3 ada ilə bağlı Rusiyanın İrandakı səfirinə etiraz notası təqdim olunub*

**Rusiyanın İrandakı səfiri Aleksey Dedov ölkənin Xarici İşlər Nazirliyinə çağırılıb. İran XİN-in yaydığı məlumatda deyilir ki, buna səbəb Rusiya və Körfəz Dövlətlərinin Əməkdaşlıq Şurası ölkələrinin xarici işlər nazirləri arasında strateji danışıqların altıncı raundunun yekun bəyanatında yer alan məqam olub. Bildirilir ki, söhbət körfəzdə yerləşən 3 adaya aid olan bəyanatın bir hissəsindən gedir. Bunlar Əbu Musa, Kiçik və Böyük Tunb adalarıdır. Rus diplomata İranın sözügedən bəyanatla bağlı etirazı çatdırılıb.**

"Anadolu" agentliyinin verdiyi xəbərə görə, Tehranın narazılığına səbəb körfəzdə Birləşmiş Ərəb Əmirliklərinin də iddia etdiyi mübahisəli 3 adaya dair Rusiya tərəfinin tutduğu mövqedir. Adları çəkilən adaların tarixən İranın tərkib hissəsi olduğunu qeyd edən İran XİN bununla bağlı Moskvadan mövqeyinin aydınlaşdırılmasını gözlədiyini açıqlayıb. İranın xarici diplomatiya idarəsinin məlumatında o da qeyd olunur ki, səfir Dedov ölkəsinin İranın ərazi bütövlüyünə hörmətlə yanaşdığını bildirərək yaranmış vəziyyət barədə Rusiya hökumətini məlumatlandıracağını deyib.



Xatırladaq ki, İran və BƏƏ Hörmüz boğazı akvatoriyasında strateji mövqeyə malik Əbu Musa, Kiçik və Böyük Tunb adalarına iddia edirlər. Bu adalar 1971-ci ilədək Böyük Britaniyanın nəzarətində olub, BƏƏ müstəqilliyini elan etdikdən sonra isə onları bu ərəb ölkəsinə verib. Amma Londonun qərarına baxmayaraq, İran adaları zəbt edib. Hazırda BƏƏ adaları işğal edilmiş, İranı isə təcavüzkar sayır. Bu barədə Körfəz Dövlətlərinin Əməkdaşlıq Şurasının bəyanatında yer alan iddianı təkzib edən İran XİN-in sözçüsü Naser Kənani "körfəzdəki üç ada həmişəlik İrana məxsusdur" şəklində açıqlama verib. O, həmçinin qeyd edib ki, bu cür bəyanatlar İran və onun qonşuları arasında dostluq münasibətlərinə ziddir.

Diplomat deyib: "İran İslam Respublikası mehriban qonşuluq və qarşılıqlı hörmət siyasətinin davam etdirilməsini nəzərə çatdıraraq bildirir ki, regionun inkişafı və sabitliyi körfəz ölkələrinin kollektiv məsuliyyətinə daxildir".

***"Xalq qəzeti"***



# Tovuz döyüşlərinin ildönümündə İkinci Şəhidlər xiyabanı ziyarət edilib

**Azərbaycan Respublikası Müdafiə Nazirliyinin şəxsi heyəti Tovuz döyüşlərinin üçüncü ildönümü ilə əlaqədar İkinci Şəhidlər xiyabanını ziyarət edib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, Tovuz döyüşləri zamanı şəhidlik zirvəsinə ucalan Azərbaycanın Milli qəhrəmanları general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev, o cümlədən respublikamızın ərazi bütövlüyünün bərpası, tarixi torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalan Vətən övladlarının məzarları üzərinə gül dəstələri düzülüb, xatirələri ehtiramla yad edilib.

Şəhidlərin xatirəsinə bir dəqiqəlik sükut elan edildikdən sonra hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa olunub.

Tədbirdə şəhidlərin ölməzliyindən danışılıb və onların xatirələrinin bundan sonra da əziz tutulacağı əminliklə qeyd edilib.

Sonda Müdafiə Nazirliyinin idarə rəisləri şəhid ailələri ilə görüşərək onların qayğıları ilə maraqlanıblar. Ailələr isə, öz növbələrində, göstərilən diqqət və qayğıya görə Müzəffər Ali Baş Komandan İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlıqlarını bildiriblər.

***"Xalq qəzeti"***

# İrəvanın ekocinayətləri Paşinyan rejiminin gerçək simasını üzə çıxarır

**Ermənistan Azərbaycanla "Sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında" ikitərəfli saziş layihəsi üzrə danışıqlar aparsa da, bu ölkənin bizə münasibətdə xəbisliyi bitib-tükənmək bilmir. İrəvanda hakimiyyətlər dəyişir, ancaq bu münasibət on illərdir ki, dəyişmir. Haylar hər vəchlə Azərbaycana pislik etməyə çalışırlar. Onlar nəinki Azərbaycana və azərbaycanlılara, eləcə də bizimlə bağlı olan hər şeyə patoloji nifrət bəsləyirlər. Bu ilin aprelində İrəvanda ağır atletika üzrə Avropa çempionatının açılış mərasimində dövlət bayrağımızın yandırılması, iyulun əvvəlində isə Gürcüstanda keçirilən "Batumi Open" beynəlxalq karate turnirində erməni idmançının yarış başa çatdıqdan sonra azərbaycanlı idmançının sifətinə qəfildən yumruqla zərbə endirməsi bunun bariz göstəricisidir.**



Ermənistanın digər bir pisliyi də Azərbaycanın ətraf mühitinə və biomüxtəlifliyinə zərər vurmasıdır. Bu, beynəlxalq hüquqda ekosid adlanır. Ekosid flora və ya faunanın kütləvi şəkildə məhv edilməsi, atmosferin və ya su ehtiyatlarının zəhərlənməsi, habelə ekoloji fəlakətə səbəb ola biləcək digər hərəkətlərin edilməsidir. Bu termin Vyetnamla müharibənin qızğın çağında ABŞ-ın hərəkətlərinə reaksiya olaraq, 1970-ci ildə Adam Qalfson tərəfindən elmi dövriyyəyə daxil edilib. Hüquq nəzəriyyəsi baxımından təbiətin məhv edilməsi cəzalandırılmalıdır. Bütün dünya üzrə ekoloji fəallar hesab edirlər ki, ekosid hazırda yalnız dörd cinayəti (soyqırımı, insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri və təcavüz) əhatə edən Beynəlxalq Cinayət Məhkəməsinin yurisdiksiyasına daxil edilməlidir. Bir sıra ölkələrdə ekosid artıq cinayət kimi təsnif edilir. Bu ölkələrdə ekosid təşkil edə biləcək hərəkətlərə ekosistemə əhəmiyyətli ziyan vurmaq və ya onu məhv etmək, yaxud hansısa növün rifahına, o cümlədən insanların sağlamlığına zərər vurmaq daxildir. Düzdür, BMT hələ də ekosidi beynəlxalq cinayət kimi tanımayıb. Ancaq 2021-ci ildə beynəlxalq hüquqşünaslar qrupu ekosidi beşinci beynəlxalq cinayət hesab edən qanun layihəsi hazırlayıblar.

***

Bəli, Ermənistanın Azərbaycana qarşı törətmiş olduğu cinayətlər az imiş kimi, onların üzərinə biri də əlavə olunub: ekosid. İyulun 11-də Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə dövlət başçımızın toxunduğu məsələlərdən biri də Ermənistanın ekosid cinayətləri oldu. Dövlətimizin başçısı qeyd etdi ki, Qarabağ və Şərqi Zəngəzur ekoloji fəlakət zonasına çox yaxın idi: "Çünki Ermənistan həm Ermənistandakı müəssisələrin fəaliyyəti nəticəsində, eyni zamanda, o vaxt işğal edilmiş torpaqlarda – Qarabağda və Şərqi Zəngəzurda təbii resurslarımızın vəhşicəsinə istismarı nəticəsində təbiətimizə böyük zərbə vurub. Təkcə onu demək kifayətdir ki, 60 min hektardan çox meşə fondu ermənilər tərəfindən dağıdılıb, talan edilib, çıxarılıb, satılıb, yaxud parket düzəldiblər və satıblar. Yəni, bütün bu peyk görüntüləri bizdə var".

***

Məqalənin girişində Ermənistanın Azərbaycana xəbisliyinin bitmədiyini vurğulamağımız əsassız deyil. Məsələ ondadır ki, Ermənistan hazırda Azərbaycanla, Naxçıvan Muxtar Respublikası ilə həmsərhəd ərazisində – Arazdəyən kəndində illik istehsal gücü 180 min ton olan iri metallurgiya zavodunun inşasını həyata keçirir. Tikintiyə 70 milyon dollar sərmayə yatırılacaq, zavodun hündürlüyü 30 metr, sahəsi 16500 kvadratmetr olacaq.

Ekoloqlar bu fikirdə həmrəydirlər ki, zavodun inşası yeni ekoloji fəlakətə yol açacaq. Onların fikrincə, bu metallurgiya zavodunun zəhərli kimyəvi tullantıları bölgədəki ekosistemə böyük zərbə vura bilər. Onun tullantılarının Araz çayına axıdılması riski həm çaydakı canlı aləm, həm də Arazın suyundan suvarma üçün istifadə edilən geniş təsərrüfatlar üçün həyəcan siqnalıdır. Ermənistanın dağ-mədən sənayesində heç bir beynəlxalq standartlara əməl edilməməsi həm Azərbaycan, həm də ümumilikdə bölgə üçün ciddi ekoloji təhdid yaradır.

Prezident İlham Əliyevin sədrliyi ilə iyulun 11-də keçirilən müşavirədə də Ermənistanın yumşaq desək, bu yaramaz əməli diqqətdən kənarda qalmadı. Dövlət başçısı bildirdi ki, indi transsərhəd təhlükələri mütləq nəzərə alınmalıdır və Azərbaycanın burada sərgilədiyi mövqeyi yenə də beynəlxalq təcrübəyə, beynəlxalq konvensiyalara əsaslanır, o cümlədən Espo Konvensiyasına: "Bunu hər kəs internetdə açıb baxa bilər. O göstərir ki, transsərhəd çayların çirkləndirilməsi və ölkələrin sərhədlərinə yaxın müəssisələrin, ekoloji təhlükə mənbəyi sayıla biləcək müəssisələrin yaradılması qonşu ölkələrlə mütləq razılaşdırılmalıdır və biz bunu Ermənistandan tələb edirik. Bu gün Azərbaycan ictimaiyyəti, qeyri-hökumət təşkilatları artıq bu məsələ ilə bağlı Ermənistanın rəsmi orqanlarına müraciət ünvanlayıblar və ekologiya sahəsində fəaliyyət göstərən beynəlxalq ekspertlər və qeyri-hökumət təşkilatlarının nümayəndələri də bu müraciətə qoşulublar. Ona görə mən hesab edirəm ki, Azərbaycan hökuməti də burada kənarda qalmamalıdır.



Bizim vətəndaş cəmiyyətimiz bu addımı atır, çox yaxşı, amma baxmaq lazımdır, rəsmi xətlə, yəni, dövlət xətti ilə hansı təşkilatlara hansı müraciətlər ünvanlanmalıdır ki, Ermənistan bu təhlükəli praktikadan əl çəksin. Əgər onlar hansısa müəssisə yaratmaq istəyirlərsə, bizim buna, əlbəttə ki, münasibətimiz ola bilməz. Onların daxili işidir. Amma əgər bu müəssisə bizim sərhədimizin 500 metrliyində yerləşirsə, orada təhlükəli maddələrdən istifadə ediləcəksə və bu maddələr yenə də Araz çayına, Oxçu çayına töküləcəksə, bu, bizim məsələmizdir. Biz buna necə imkan verə bilərik? Əlbəttə ki, biz bu məsələləri qanun çərçivəsində, beynəlxalq konvensiyalar çərçivəsində, diplomatiya çərçivəsində mütləq diqqətdə saxlamalıyıq. Ona görə bu tapşırığı verirəm, siz baxın, hansı hüquqi yollar var ki, Ermənistan bu təhlükəli praktikadan əl çəksin".

Qeyd edək ki, dövlət başçımızın haqqında bəhs etdiyi Espo Konvensiyasının tam adı Transsərhəd kontekstdə Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi üzrə Konvensiyadır. Beynəlxalq müqavilə statusunda olan sənəd BMT-nin təşəbbüsü ilə 1991-ci ildə imzalanıb, 1997-ci ildə qüvvəyə minib. Finlandiyanın Espo şəhərində imzalandığı üçün bir çox hallarda Espo Konvensiyası adlanır. Konvensiyaya əsasən, potensial təhlükəli layihələrin ətraf mühitə təsirinin qiymətləndirilməsi (ictimai müzakirələr də daxil olmaqla) proseduru təkcə dövlət daxilində deyil, həm də bu obyektlərin təsirinə məruz qala biləcək qonşu ölkələrdə də həyata keçirilməlidir. Qiymətləndirmə proseduru planlaşdırmanın ilkin mərhələlərində həyata keçirilməlidir. Qonşu ölkələrə təsir edə biləcək obyektlərin siyahısı Konvensiyaya 1 saylı əlavədə verilib.

Azərbaycan tərəfi ilə razılaşdırmadan sərhəddə belə bir müəssisənin tikintisi Espo Konvensiyanın kobud şəkildə pozulmasıdır. Azərbaycan və Ermənistan konvensiyanın tərəfləridir və Espo Konvensiyasından irəli gələrək, bu zavodun ətraf mühitə təsirinin qiymətləndirilməsi işi aparılmalı, tikinti ilə əlaqədar qiymətləndirmə sənədinə qonşu dövlət olan Azərbaycanın müvafiq qurumları baxmalı, eyni zamanda, bölgəyə yaxın yaşayan azərbaycanlıların rəyi nəzərə alınmalı idi. Ermənistanın bu tələblərə riayət etməməsi bir daha onu göstərir ki, özünü "demokratik yolla seçilmiş hökumət" adlandıran Nikol Paşinyan iqtidarı bölgədə destruktiv siyasət aparır, qoşulduğu beynəlxalq sənədlərin müddəalarını kobud şəkildə pozur, öhdəliklərini yerinə yetirməkdən imtina edir. Bu isə Paşinyan rejiminin əsl simasını üzə çıxarır.

**Ekoloji Maarifçilik və Monitorinq İctimai Birliyinin sədri Qəmzə Yusubova** da "Xalq qəzeti"nə açıqlamasında Ermənistanın dağ-mədən sənayesinin bölgə üçün ciddi ekoloji təhdid yaratmasından narahatlıq duyduqlarını diqqətə çatdırıb. Qeyd edib ki, Arazdəyəndə inşa olunan iri metallurgiya zavodunun tikintisinin dayandırılması ilə bağlı bəyanat imzalayıblar. Ancaq İrəvan buna heç bir məhəl qoymayıb, zavodun tikintisini daha da sürətləndirib: "Bundan sonra biz Nikol Paşinyana açıq məktub ünvanladıq. Ətraf mühitin mühafizəsi ilə məşğul olan beynəlxalq təşkilatlar bizim məktubumuzu dəstəkləyirlər. Çünki Ermənistanın bu fəaliyyəti beynəlxalq hüquqa ziddir, heç bir ekoloji standart gözlənilmir. Həmçinin, təmiz, sağlam, dayanıqlı ətraf mühit 2021-ci ildə BMT tərəfindən insan hüquqları kimi qəbul olunub. Ermənistan dağ-mədən sənayesində qanunsuz fəaliyyəti ilə, heç bir standarta əməl etməməklə hətta BMT-nin qəbul etdiyi insan hüquqlarını da pozur. İrəvan bizim açıq məktubumuza reaksiya verməli, özünün ekoloji siyasətində dəyişikliklər etməlidir".

Qəmzə Yusubova əlavə edib ki, torpaqlarımızın işğal altında olduğu 30 ilə yaxın dövr ərzində haylar Qarabağda, Şərqi Zəngəzurda ətraf mühitimizə qarşı konkret olaraq, ekoloji terror həyata keçiriblər: "Bilirsiniz ki, Oxçu çayı Ermənistanın dağ-mədən sənayesinin tullantıları ilə çox ciddi şəkildə zəhərləndirilib. Bu çayda biomüxtəliflik tamamilə məhv edilib. Oxçu çayı Araz çayına tökülür, Arazın suyu isə suvarmada istifadə edilir. Təbii ki, bu zaman təsərrüfatlarımıza ciddi ziyan vurulur. İndi isə iri metallurgiya zavodunun Arazdəyəndə – Azərbaycanla sərhəd bölgədə inşa olunması düşünülmüş siyasətin nəticəsidir. Zavodun inşası Azərbaycanla, hətta yerli sakinlərlə müzakirə olunub razılaşdırılmalı idi. Ermənistan Espo Konvensiyasını məqsədyönlü şəkildə pozur və heç bir müzakirə aparmadan zavodun tikintisini sürətləndirib. Ancaq tarixi təcrübə göstərir ki, Laçın-Xankəndi yolunda ekofəalların 138 gün davam edən aksiyası öz nəticəsini verdi. Həmin ərazilərdə milli sərvətlərimizin talanması dayandırıldı və sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılması təmin olundu. Düşünürəm ki, bizim fəaliyyətimizin də müsbət nəticəsi olacaq".

***Səxavət HƏMİD,***
***"Xalq qəzeti"***

# Təkrar edirik: Qarabağ Azərbaycanın daxili işidir!

## *İranın Ermənistandakı səfiri Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyini "çətin və incə" məsələ adlandırıb*

**Ermənistan baş naziri aparatının ictimaiyyətlə əlaqələr və informasiya mərkəzində fəaliyyət göstərən "Orbeli" analitik mərkəzi "Səfirə suallar" layihəsi çərçivəsində İranın bu ölkədəki səfiri Abbas Bədəxşan Zohuridən müsahibə götürüb.**

Səfir müsahibəsində çox mətləblərdən danışıb. Misal üçün, 2022-ci ili Ermənistan–İran əməkdaşlığının inkişafı baxımından, faktiki bütün sahələr üzrə son dərəcə mühüm və səmərəli olduğunu qeyd edib. Zohuri İİR-in Qafanda baş konsulluğunun açılmasını da əlamətdar hadisə adlandırıb, iki dost və qardaş ölkə arasında ticarət dövriyyəsinin ilk dəfə 700 milyon dollar həddini keçməsini fövqəladə tərəqqi kimi dəyərləndirib. Səfir, həmçinin hökumətlər və xalqlar arasında inam və qarşılıqlı hörmət mühitinin möhkəmləndirilməsini daim diqqət mərkəzində saxladığını da deməyi unutmayıb.

İranın Xarici işlər naziri Əmir Abdullahianın 2022-ci il oktyabrın 20-də İrəvana səfəri zamanı Şimal-Cənub dəhlizi ilə bağlı dövlətlərarası səmərəli əməkdaşlıqdan, bunun üçün Ermənistan–İran–Hindistan platformasının yaradılması zərurətindən söz açan diplomat yeni layihə ilə bağlı bu günlərdə Ermənistan XİN-də üçtərəfli siyasi məsləhətləşmələrin aparıldığını da xüsusi vurğulayıb. Şimal-Cənub beynəlxalq dəhliz layihəsinin reallaşması üçün İran şirkətlərinin Ermənistan infrastrukturunda yaxından və fəal iştirak etməyə hazır olduqlarını söyləyən səfir Zohuri nəticədə, İranın və Ermənistanın ərazisindən keçməklə Fars körfəzi – Qara dəniz tranzit xəttinin işə salınacağına inandığını gizlətməyib. Baltik dənizindən başlayan, Rusiya, Hindistan və İranı birləşdirən həmin Şimal-Cənub beynəlxalq nəqliyyat marşrutunun üzərində Zəngəzurda dəmir yolu xəttinin işə salınması ilə yüklərin daşınma müddətində 13-20 faiz qənaətə nail olunacağı deyilir. Hindistan–İran–Ermənistan layihəsini, yəni Fars körfəzi–Qara dəniz marşrutunu Zəngəzur dəhlizinə alternativ kimi düşünən üçlüyün isə burada özlərinin iqtisadi gəlirindən daha çox siyasi dividendləri hədəf götürdükləri aydın görünür. Xırda Ermənistanı böyük transmilli layihələrə qoşmağa çalışan məlum güclərin əsas niyyəti məğlub Hayastanın müharibədə bükülmüş belini dirçəltmək, onu gücləndirmək və sonucda Bakıya təzyiq göstərməkdir. Amma yanılırlar. Çünki artıq Azərbaycanla gücün dili ilə danışmaq mümkün deyil, indi onun özü sözünü və gücünü diktə edən tərəfdir. Azərbaycan Prezidenti İlham Əliyev 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə belə yanlış niyyətə düşənlərin dəqiq və konkret cavabını verdi: "Heç kim bizim iradəmizə təsir edə bilməz. Əksinə, bizə qarşı tuşlanmış bütün oxları sındırıb öz ləyaqətimizi və maraqlarımızı qoruya bilmişik. Daha əlavə sözlərə ehtiyac yoxdur, hər şey göz qabağındadır. Necə deyərlər, dərinə getmək istəmirəm, amma bunu artıq hər kəs görür, görməlidir və bilməlidir ki, Azərbaycanla hədə-qorxu, ultimatum dili ilə heç kəs danışa bilməz və hesab edirəm ki, bundan sonra belə cəhdlər də olmayacaq".



* * *

Müsahibənin ən "yaddaqalan" hissəsi isə Qarabağ münaqişəsi və oradakı erməni əhalisinin gələcək aqibəti ilə bağlı olub. Səlahiyyət müddəti başa çatmaqda olan səfir Zohuri erməni jurnalistin "Azərbaycan Laçın dəhlizini bağlayıb, nəticədə 120 minlik (?) erməni əhalisi blokadaya düşüb. Bakının bu hərəkəti 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın şərtlərini, arsaxlıların öz vətənlərində (?) azad və təhlükəsiz yaşamaq haqqını (?) kobud surətdə pozması deməkdir. İranın bu məsələdə mövqeyi necədir? – sualına belə cavab verib: "Bizim 10 noyabr Bəyanatını və sonrakı razılaşmaları imzalayan tərəflərə tövsiyəmiz həmişə bu olub ki, həmin saziş və öhdəliklərin hərfinə və ruhuna əməl etsinlər. Beynəlxalq hüquqa görə, ölkələrin öz üzərinə götürdüyü dəqiq öhdəlikləri, vəzifələri var ki, onlardan biri də Qarabağ bölgəsində yaşayan sakinlərin hüquq və təhlükəsizliyinin (?) müdafiəsidir. Biz hesab edirik ki, göstərilən ərazidə yaşayan sakinlərin hüquq və təhlükəsizliyi olduqca çətin və incə (?) məsələdir". Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyinin "çətinliyinin" və "incəliyinin" nədən ibarət olduğunu, harada gizləndiyini açıqlamayan cənab səfirə bu məsələnin Azərbaycanın daxili işi olduğunu xatırlatmağa dəyər. Onun unutduğu bu həqiqəti Prezident İlham Əliyev ən mötəbər beynəlxalq platformaların tribunalarından dəfələrlə bəyan edib. Azərbaycan üçün Hayastanın yaxındakı və ya uzaqdakı tərəfdaşları ilə necə və hansı formada əməkdaşlıq edəcəyi əhəmiyyət daşımır. Sadəcə, bu zaman bizim mənafeyimizə zidd hərəkətlərə yol verərsə, altməqsədli gedişlərə baş vurarsa, Bakının dərhal adekvat addımlar atacağına şübhəsi olmamalıdır. Bunu sülhə gəlməkdə hələ də cığallıq edən haylar kimi, İrəvanın ən yaxınlıqdakı tərəfdaşı da nəzərə almalıdır.

***İ.HƏSƏNQALA,***
***"Xalq qəzeti"***

# Türkiyə yeni “F-16”lar alacaqmı?

## Co Bayden: “Ərdoğan və Türkiyə ilə işləməyə hazıram”

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Litvanın paytaxtı Vilnüsdə keçirilən NATO Zirvə toplantısında verdiyi açıqlamalar beynəlxalq aləmin gündəmində olub. Dünya zirvədə çıxarılan qərarlardan danışarkən ilk “F-16” açıqlamasını ABŞ Prezidenti Co Bayden verdi. “Avro-Atlantik bölgədə çəkindirmə və müdafiəni inkişaf etdirmək üçün Prezident Ərdoğan və Türkiyə ilə işləməyə hazıram”– açıqlaması ilə çıxış etdi.**




Dövlət Departamentinin sözçüsü Metyu Miller isə mətbuat konfransında jurnalistlərin suallarını cavablandırarkən bildirdi ki, İsveçin NATO üzvlüyü və “F-16”ların satışı ayrı-ayrı məsələdir. “Bir müddətdir ki, “F-16” satışında Türkiyəni dəstəklədiyimizi açıq şəkildə bildirirk və bu barədə onlara özəl görüşlərdə deyirik. Ancaq biz bu məsələnin İsveçin NATO-ya üzvlüyü ilə bağlı olduğuna hər nə qədər inanmasaq da, bir qrup Konqres üzvü var ki, bunun NATO üzvlüyü ilə əlaqəli olduğuna inanırlar. Birləşmiş Ştatlar Türkiyənin Avropa İttifaqına üzvlük istəklərini həmişə dəstəkləyib və dəstəkləməkdə davam edir. Türkiyənin üzvlük iddiası və prosesi Aİ və Türkiyə arasında olan bir məsələdir. Bizim diqqətimiz isə NATO-ya üzv olmağa hazır olan İsveçə yönəlib”.

Daha sonra Ağ evin milli təhlükəsizlik üzrə müşaviri Cek Sallivan deyib: “Bayden “F-16” ların satışı məsələsini Konqreslə məsləhətləşərək qırıcıları Türkiyəyə göndərməyi planlaşdırır. Dövlət başçısı bir neçə ay ərzində “F-16” hərbi təyyarələrinin Türkiyəyə tədarükünün tərəfdarı olduğunu birmənalı şəkildə qeyd edib və bu, bizim milli maraqlarımıza cavab verir. Türkiyənin potensialının artması NATO-nun marağındadır”.

“F-16” qırıcılarının Türkiyəyə satışının qəti əleyhinə olan ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin sədri Robert Menendes də açıqlama ilə çıxış edib. O bildirib ki, hazırda ABŞ Senatının Xarici Əlaqələr Komitəsi Prezident Administrasiyası ilə danışıqlar aparır və gələn həftə ərzində “F-16” qırıcılarının Türkiyəyə satılması ilə bağlı qərar verilə bilər. Lakin Robert Menendes bu məsələnin Ankaranın İsveçin NATO-ya üzvlüyünə razılıq verməyi ilə bağlı olub-olmadığı məsələsinə aydınlıq gətirməyib.

Ağ evdən sonra diqqətçəkən bir açıqlama da NATO-dan gəldi. NATO-nun Baş katibi Yens Stoltenberq deyib: “Türkiyə açıq şəkildə bildirdi ki, “F-16” tədarükü məsələsi İsveçə bağlı sövdələşmənin bir hissəsi deyil. Lakin bu razılaşmaların bir hissəsi olaraq Türkiyəyə silah tədarükünə qoyulan məhdudiyyətlər aradan qaldırılıb”.

NATO-nun Baş katibi daha sonra deyib ki, İsveçin NATO-ya qəbulu ilə bağlı protokol yaxın vaxtlarda Türkiyə parlamentinə təqdim olunacaq, lakin ölkənin qanunvericilik məclisi bu həftə yay tətilinə getdiyi üçün sənəd, çox güman ki, payız sessiyasında təsdiqlənəcək. Türkiyə parlamentinin payız sessiyası oktyabrın 1-də başlayır”.

Türkiyədən sonra Macarıstan da İsveçin NATO-ya üzvlüyünə razılıq verib. Ekspertlər bunu “Alyansın birliyinin sübutu” kimi dəyərləndirirlər.

Xatırladaq ki, Türkiyə ABŞ-dan 40 ədəd “F-16 Block 70” təyyarəsi və öz arsenalındakı “F-16” qırıcılarının modernizə edilməsi üçün 80 dəst “Block 70” komponenti istəyib. Lakin Amerika qanunvericiləri ABŞ silahlarının digər ölkəyə satılmasına mane ola bilərlər. Dövlət katibi Entoni Blinkenin sözlərinə görə, Konqresin bəzi üzvləri Türkiyəyə silah tədarükünü İsveçin NATO üzvlüyü ilə bağlı Ankaranın addımlarına bağlamağa çağırır.

Qeyd edək ki, dünən Litvanın paytaxtı Vilnüs şəhərində NATO-nun sammiti başlayıb. NATO-nun Baş katibi Yens Stoltenberqin sözlərinə görə, bu sammit müzakirə olunacaq bir çox məsələlərlə bağlı tarixi toplantıdır. Bura İsveçin alyansa üzvlüyü, Ukraynaya dəstək, üzv ölkələrin müdafiə öhdəliyinin artırılması kimi məsələlər daxildir. O deyib: “Sammitdə Ukraynaya gələcək dəstək barədə də qərarlar qəbul ediləcək, biz Kiyevə əlavə hərbi dəstək göstərməyi öhdəmizə götürürük”.

**Pünhan ƏFƏNDİYEV,**
***“Xalq qəzeti”***

# Ukraynalı hərbçilərin qaytarılması Rusiya–Türkiyə münasibətlərinə necə təsir göstərəcək?

**“Azov” alayının komandirləri iyulun 8-də Ukraynaya qayıtdılar. Prezident Vladimir Zelenski onların geri qayıtmasının Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla razılaşmalar sayəsində mümkün olduğunu bildirdi. Razılaşmanın detalları açıqlanmadı, ancaq ukraynalı hərbçilərin qaytarılması Rusiyada birmənalı qarşılanmadı. Rəsmi Moskva hərbçilərin geri qaytarılmasını “razılaşmanın kobudcasına pozulması” kimi qiymətləndirsə də, Türkiyə ilə münasibətlərini bundan sonra da inkişaf etdirəcəyini vurğuladı.**

Şurasının müdafiə və təhlükəsizlik komitəsinin rəhbəri, general Viktor Bondarev bildirir ki, Türkiyə dost olmayan ölkəyə çevrilir. Senator əsir götürülən komandirlərin Ukraynaya ekstradisiyasını “təxribat” adlandırır. Ukraynaya qayıdıqdan sonra keçmiş əsirlərin cəbhəyə getməyi planlaşdırdıqlarını açıqlamalarından sonra bəzi



“Biz Türkiyədən Vətənə qayıdırıq və qəhrəmanlarımızı Vətənə qaytarırıq. Ukrayna əsgərləri Denis Prokopenko, Svyatoslav Palamar, Sergey Volinski, Oleq Xomenko, Denis Şleqa, nəhayət, ailələrinin yanında olacaqlar”, – Vladimir Zelenski sosial şəbəkədəki səhifəsində belə bir məlumat paylaşmışdı. Bundan əvvəl cənab Zelenski İstanbula səfər etmiş və burada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla danışıqlar aparmışdı. Xatırladaq ki, adı çəkilən komandirlər Prezident Rəcəb Tayyib Ərdoğanın zəmanəti altında Türkiyədə qalmışdılar. “Azov” batalyonunun komandirləri 2022-ci ilin sentyabrında mübadilə çərçivəsində Rusiya əsirliyindən Türkiyəyə gətirilmişdilər. O zaman Rusiya Müdafiə Nazirliyi daha 55 rus hərbçisinin ölkəyə qayıtdığını bildirmişdi. Əvəzində Rusiya Ukraynaya “Azov” alayının nümayəndələri də daxil olmaqla 215 nəfəri təhvil vermişdi.

Bəs ukraynalı hərbçilərin azad edilməsi Rusiya–Türkiyə münasibətlərinə necə təsir göstərəcək? Ümumiyyətlə, bu hadisə Rusiyada necə qarşılandı? Müharibə Tədqiqatları İnstitutu ukraynalı komandirlərin azad edilməsinin Rusiyanın hərbi dairələrində son dərəcə narahatlığa qarşılandığını bildirir. Rəsmi dairələr də, eyni zamanda, Rusiya informasiya məkanı da ukraynalı hərbçilərin azad olunmasına mənfi münasibətlətini sərgilədilər. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirdi ki, bu, Moskva, Kiyev və Ankara arasında “razılaşmaların pozulmasıdır”. D.Peskovun sözlərinə görə, “Azov” komandirlərinin Ukraynaya qayıtması barədə Rusiyaya məlumat verilmədi. Müqavilələrin şərtlərinə görə, “Azov” komandirləri münaqişənin sonuna qədər Türkiyədə qalmalı idilər. Müxtəlif siyasi-hərbi ekspertlər də iddia etdilər ki, “Azov” komandirlərinin Türkiyəyə verilməsi “yanlış qərar” idi. Rusiyada bir çox ultra-millətçi bloqerlər “Azov” komandirlərinin qayıtmasını Rusiya üçün “alçaldılma” kimi qiymətləndirirlər.

Bununla belə, Rusiya bu hadisəyə görə Türkiyə ilə münasibətlərini yenidən nəzərdən keçirməyə hazırlaşmır. D.Peskovun sözlərinə görə, NATO sammitindən əvvəl alyansın üzvü olan Türkiyənin böyük təzyiq altında olduğunu bilirdilər və Moskva hər şeyi gözəl başa düşür. Ancaq “şimal qonşu”dan alternativ bəyanatlar da səslənmişdir. Məsələn, Rusiya Federasiya rusiyalı hərbi müxbirləri Türkiyə ilə İstanbul yaxınlığında qaz qovşağının yaradılması, “Akkuyu” atom elektrik stansiyasının tikintisi və taxıl müqaviləsi kimi iqtisadi müqavilələri pozmağa çağırırlar. Amma rusiyalı mütəxəssislər inanmırlar ki, Moskva Türkiyə ilə iqtisadi əməkdaşlığını məhdudlaşdıracaq. Siyasi analitik Toğrul İsmayıl da ümid edir ki, Ankara ilə Moskva arasında ciddi bir çəkişmə olmayacaq: “Münasibətlərin pisləşməsi Türkiyə üçün sərfəli deyil, ilk növbədə, Rusiya üçün də sərfəli deyil. Türkiyə təkcə adi vətəndaşlara deyil, həm də siyasətçilərə qapılarını rusların üzünə açan yeganə NATO üzvüdür”.

**Səbuhi MƏMMƏDOV,**
***“Xalq qəzeti”***

*Vida sözü*

# Abidələrində ölməzlik qazanmış sənətkar

**Azərbaycan mədəniyyətinə ağır itki üz verib. Müasir heykəltəraşlıq sənətinin ən parlaq nümayəndələrindən biri, Xalq rəssamı Fazil Nəcəfov 88 yaşında vəfat edib.**



Fazil Nəcəfov 1935-ci il fevralın 16-da Bakı şəhərində anadan olub. O, 1955-ci ildə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini, 1961-ci ildə V.İ.Surikov adına Moskva Ali Rəssamlıq İnstitutunu bitirib.

Görkəmli heykəltəraş Fuad Əbdürrəhmanovun yetirməsi olan Fazil Nəcəfovun yaradıcılığının ilk illərindən etibarən mövzu və janr müxtəlifliyi, plastik formaların incə duyumu, mövzunun mahiyyətinə uyğun müasir formalar, təsir və özünüifadə vasitələrinin axtarılması özünü qabarıq göstərib.

1950-ci illərin sonu – 1960-cı illərin əvvəllərində Bakıda özlərini tamamilə bədii eksperimentlərə, fərdi sənət dilinin inkişafına həsr etmiş həmfikir rəssamlardan ibarət mühit formalaşmışdı. Onların yaradıcılığında məzmunla yanaşı, əsərlərinin əsasını müxtəlif formalar təşkil etməyə başlamışdı.

Monumentallıq, yığcamlıq, dəqiq və inamlı kompozisiya həlli F.Nəcəfovun əsərlərinin səciyyəvi cəhətlərindəndir. Rəssam hər zaman bədii yaradıcılıqda sərbəstliyə, cəsarətli formalara, orijinal ideyalara, yeni obrazların yaradılmasına can atır və uğurlu nəticələr əldə edirdi. Təsadüfi deyil ki, tanınmış heykəltəraşın adı gələn kimi sənətsevərlər “İçərişəhər qadınları”, “Ana”, “Teatr”, “Səhər”, “Həyatın mərtəbələri”, “Zamanın oyunları”, “Fortuna”, “Qulyabani”, “Qoca”, “Qız”, “Gənc qadın”, “Mələk”, “Həyatın mərtəbələri”, “Söhbət”, “İstirahət edən qoca”, “Minillik insan”, “İbadət”, “Əkizlər”, “Fontan” kimi əsərlərini rəğbətlə xatırlayırlar.

Bizim “Xalq qəzeti” redaksiyasının yaxınlığında, Nizami Kino Mərkəzinin yanında ucaldılmış bir abidə isə özünün modern dizaynı ilə diqqət çəkir. Bu, Fazil Nəcəfovun yaradıcı fantaziyasının məhsulu olan “Qara Qarayev” heykəlidir: görkəmli bəstəkarın xəyala dalmış halda təsviri ziyarətçiləri dərin düşüncələrə qərq edir. İndi Fazil Nəcəfovun özünün də əbədiyyətə qovuşması xəbəri ilə istər-istəməz könüllərimizi hüznlü duyğular aldı. Onu da xatırladaq ki, Xalq rəssamı 2015-ci ildə Heydər Əliyev Fondunun və IDEA-nın (Ətraf Mühitin Mühafizəsi naminə Beynəlxalq Dialoq) dəstəyi ilə 56-cı Venesiya Biennalesində 8 əsəri ilə uğurla iştirak edib. 2019-cu ildə Fazil Nəcəfovun yaradıcılığına həsr olunmuş “Göyə baxan daşlar” sənədli filminin maraqlı təqdimatı keçirilib və seyrçilər bir daha əmin olublar ki, o, insana, bəşəriyyətə dərin sevgi bəsləyən sənətkardır.

İki il öncə isə Moskvadakı Dövlət Şərq Muzeyində Fazil Nəcəfov Azərbaycan heykəltəraşlığında avanqardizm istiqamətinin banisi kimi təqdim edilib, Xalq rəssamının albomunun təqdimatı və sərgisinin açılışı olub. Sənətkarın yaradıcılığının müxtəlif dövrlərinə aid qrafika əsərləri və bürüncdən hazırlanmış heykəllər nümayiş etdirilib. Onun yaradıcılığında ədalət, sülhə çağırış, humanizm çalarları xüsusilə güclü təsir bağışlayıb.

Fazil Nəcəfov 1988-ci ildə Əməkdar incəsənət xadimi, 2002-ci ildə isə Azərbaycanın Xalq rəssamı fəxri adlarına layiq görülüb. Rəssam 2020-ci ildə Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə “Şöhrət” ordeni ilə təltif edilib.

Heykəltəraşlıqda öz sözünü demiş Fazil Nəcəfov onu sevənlərin ürəklərində yuva salanlardan, abidə kimi ucalanlardandır. Onun işıqlı obrazı hər zaman xatirələrdə boy göstərəcək.

Allah rəhmət eləsin!

**Ə.ƏLİYEV, *“Xalq qəzeti”***

*AMEA-dan xəbər*

**Şuşada keçirilən növbəti Vaqif Poeziya Günləri ərəfəsində AMEA-nın yaydığı xəbər bu sənət bayramına töhfə kimi səsləndi: Xurşidbanu Natəvanın M.Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan, “Gül dəftəri” adlanan – gül təsvirli şeirlər albomu UNESCO-nun Dünya Yaddaşı Beynəlxalq Reyestrinə salınıb. Qurumun baş direktorunun imzası ilə müvafiq sertifikat instituta təqdim edilib. Beləliklə, Natəvan sənətinin xoş sorağı ondan bir əsr əvvəl Şuşada yaşayıb-yaratmış Vaqifin adına düzənlənən ənənəvi poeziya bayramına “Gül dəftəri” təravəti gətirdi.**

# Natəvanın “Gül dəftəri” “Dünya yaddaşı”na daxil edildi

Qeyd edək ki, “Gül dəftəri – təsvirli şeirlər albomu” nominasiyası Əlyazmalar İnstitutunun beynəlxalq elmi-mədəni əlaqələr şöbəsinin müdiri dosent Nigar Babaxanova tərəfindən tərtib edilərək UNESCO-nun müvafiq komissiyasına təqdim olunub. Eyni zamanda, Novruz bayramı günlərində həmin şeir albomundan 3 rəsm UNESCO-nun mənzil-qərargahında təşkil olunan sərgidə ölkəmizin təşkilat yanındakı daimi nümayəndəliyi tərəfindən nümayiş etdirilib.



**Sevinc hisslərini bizimlə bölüşən Nigar Babaxanovanın dedikləri:**

– Bu əlamətdar hadisə Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu ilə bərabər, ölkəmizin aidiyyəti qurumlarının birgə




uğurlu fəaliyyətinin nəticəsidir. Əminik ki, gələcəkdə digər sənədli irs nümunələrimizin sözügedən reyestrə daxil edilməsi ölkəmizin zəngin mədəniyyətinin beynəlxalq səviyyədə tanıdılmasına töhfə verəcək.

Nəcib işləri ilə tanınmış Xan qızı Natəvan gözəl şair və ictimai xadim olmaqla bərabər, incə zövqə malik rəssam və bədii tikmə ustası olub. Özünün rəssamlıq fəaliyyətini poetik yaradıcılığından bir an belə ayrı təsəvvür etməyən Natəvan, deyilənə görə, bu sənətin sirlərini ona həm də ilk təhsil verən bibisi Gövhər xanımdan alıbmış. Onun bədii irsi Azərbaycan incəsənətini məxsusi çalarlarla zənginləşdirən sənət nümunələrindən ibarətdir. Xan qızının Qafqaza səfərə gələn məşhur fransız yazıçısı Aleksandr Dümaya özünün heyrətamiz tikmələrini bağışlaması da tarixi fakt kimi məlumdur. Natəvanın qrafik rəsmləri XIX əsr Azərbaycan təsviri sənətinin, miniatür rəssamlığının inkişaf tarixini özünəməxsus bədii xüsusiyyətlərlə yeniləşdirib.

**Sənətşünas, Əməkdar incəsənət xadimi Ziyadxan ƏLİYEV:**

– Natəvanın 1886-cı ildə hazırladığı 227 səhifəlik albomuna baxınca onun bənzərsiz gözəllik duyumu ilə tanış olmaq mümkündür. Mütəxəssislərin “Gül dəftəri” adlandırdıqları bu albomda müəllifin yazdığı on üç qəzəllə yanaşı, onun sulu boya və karandaşla çəkdiyi müxtəlif güllər – qızılgül, bənövşə, qərənfil, eləcə də yasəmən, lalə və süsən əks olunmuş rəsmlər toplanıb. Rəsmlərin arasında 30-a qədər mənzərə və müxtəlif bitki təsvirinə də rast gəlmək mümkündür. Bütünlükdə götürsək, onların həm rəngarəng motivlərində, həm də diqqəyə rəng çalarlarında ifadə olunan təsiredici ovqat xanım şairin poetik irsinin daşıdığı lirik ruhla həmahəng səsləşir. Bunu əksər hallarda albomun səhifələrində yanaşı yerləşdirilmiş şeir və təsvirin aşıladığı bədii-psixoloji əhvali-ruhiyyə də təsdiqləyir.

Natəvanın albomu, ilk növbədə, cildindəki tirmə üzərində rəngli saplarla və muncuqlarla işlənmiş bəzək elementləri ilə diqqət çəkir. Cildin bir tərəfində nərgiz, qızılgül və miladi tarixlə “1886-cı il”, o biri tərəfində isə küknar, qovaq, şam ağacı və hicri tarixlə “1304-cü il” toxunub. Alboma çəkdiyi “Bülbül”, “Bənövşə”, “Gül”, “Qərənfil” və “Pərvanə” təsvirlərinin yanında bu zərif və incə varlıqlara həsr etdiyi şeirlərini yerləşdirməklə haradasa ədəbiyyatla təsviri sənətin yaddaqalan sintezini yaratmağa nail olub. Əslində, bunun özü də zəngin tarixə malik qədim Azərbaycan kitab sənəti ənənələrinə yeni forma-biçim verməyin əyani nümunəsidir.

Xan qızının “Gül dəftəri”nə daxil edilmiş bədii yaradıcılıq nümunələri arasında məşhur Şeyx Şamilin evinin və Qunib qalasının rəsmi diqqət çəkir. Ehtimal etmək olar ki, bu rəsmlər onun həyat yoldaşı Xasay xan Usmiyevlə birlikdə Dağıstana səfərləri zamanı çəkilib.

Göründüyü kimi, Xurşidbanu Natəvan öz yaradıcılığında poeziya ilə təsviri sənəti uğurla qovuşdurmağı bacaran incə zövqlü bir sənətkardır. Onun gözəllik duyumunu əks etdirən işləri qədim tarixi olan bədii saxlancımızı zənginləşdirən milli sərvətdir.

**Əli NƏCƏFXANLI, “Xalq qəzeti”**

*Yeni nəşrlər*

# Özü vəzir, sözü şah olan Vaqifin kimlik portreti

**Bu il Şuşa şəhərinin “Türk dünyasının mədəniyyət paytaxtı” elan olunması, eləcə də Turanın görkəmli şəxsiyyətlərinin ədəbi irsinin təbliği məqsədilə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu böyük şairimiz Molla Pənah Vaqif haqqında “Özü vəzir, sözü şah” adlı yeni kitab nəşr edib.**

Kitab layihə rəhbəri, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyevanın “Molla Pənah Vaqif və bu kitab haqqında bir neçə söz” adlı “Ön söz”ü ilə açılır. Yazıda Günay Əfəndiyeva Molla Pənah Vaqifin ədəbi fəaliyyətinin Türk dünyası üçün kəsb etdiyi önəmdən bəhs edib: “Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu olaraq, Türk dünyasının qiymətli söz və fikir adamlarının yaradıcı irsi, onlar haqqında qələmə alınan əsərlər bizim üçün çox böyük əhəmiyyətə malikdir. “Özü vəzir, sözü şah” kitabı da bu yöndə fondun fəaliyyətinin növbəti nümunəsidir. Kitabda şairin şəxsiyyətinə və ədəbi irsinə həsr olunan poetik əsərlər, təsviri sənət inciləri bir daha göstərir ki, Vaqif yaşayır və daim türk xalqları ilə bir yerdədir”.

Azərbaycan və əcnəbi şairlərin Vaqifə həsr olunmuş şeirlərinin, onun əsərlərinə yazılan nəzirələrin toplandığı kitabda ədibin həyat və yaradıcılığı barədə dünya qələm adamlarının fikirləri də yer alıb. Nəşrə “Vaqif” dastanı və Səməd Vurğunun eyniadlı məşhur dram əsəri və Vaqifin Molla Vəli Vidadi ilə deyişməsi də salınıb. Topluda tanınmış Azərbaycan rəssamlarının çəkdiyi və şairin təsviri sənətdə obrazını canlandıran əsərlər, eyni zamanda, müxtəlif illərdə Azərbaycan teatrlarında səhnələşdirilən “Vaqif” tamaşalarından çəkilmiş fotolar da əks olunub.

Qeyd edilməlidir ki, “Zərdabi” nəşriyyatında çap olunan kitabın tərtibçisi və redaktoru şair Fərid Hüseyn, bədii tərtibatçısı Əməkdar incəsənət xadimi Ziyadxan




Əliyev, məsləhətçisi Əməkdar mədəniyyət işçisi Barat Vüsal, izahların müəllifi tərcüməçi Məhəmməd Nuridir.

***“Xalq qəzeti”***

SON SƏHİFƏ
Xalqın qəzeti!
# Xalq qəzeti
№ 144 (30260) 13 iyul 2023-cü il, cümə axşamı
veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## Avropa çempionatlarında 72 medal

**Bu il Azərbaycan güləşçiləri Avropa çempionatlarında bütün yaş kateqoriyalarında 72 medala sahib olublar.**



Onlardan 5-i qızıl, 6-sı gümüş, 3-ü bürünc medal olmaqla 14 mükafat böyüklərdən ibarət yığmanın payına düşür. 23 yaşadək idmançılardan ibarət komandamız 12 (6 qızıl, 3 gümüş, 3 bürünc), U-20 seçməsi 15 (4 qızıl, 4 gümüş, 7 bürünc), U-17 millisi isə 14 (5 qızıl, 1 gümüş, 8 bürünc) medal qazanıblar.

Millimizin aktivinə ən çox medalı 15 yaşadək güləşçilərdən ibarət komandamız əlavə edib. Yeniyetmə idmançılar Avropa çempionatını 17 medalla (2 qızıl, 6 gümüş, 9 bürünc) bitiriblər.

Sərbəst güləş üzrə əsas milli, eyni növdəki U-23 yığması, yunan-Roma güləşində və sərbəst güləşdə U-20 kollektivi çıxış etdikləri qitə yarışında komanda hesabında çempion olublar.

Qeyd edək ki, 2023-cü ildə güləş üzrə Avropa çempionatı tsikli başa çatıb.

## Paris Paralimpiadasına daha bir lisenziya

**Komandamız Paris Yay Paralimpiya Oyunlarına növbəti vəsiqəni təmin edib.**



Azərbaycan Milli Paralimpiya Komitəsinin atletika idman növü üzrə milli komandasının üzvü Səid Nəcəfzadə Fransanın paytaxtı Paris şəhərində keçirilən dünya çempionatında uzunluğa tullanma növü (7.11 metr) üzrə keçirilən yarışda bürünc medal qazanmaqla, həm də Paris Paralimpiadasında iştirak hüququ əldə edib.

Qeyd edək ki, bundan əvvəl dünya çempionatında qızıl medal qazanan Lamiyə Vəliyeva və 4-cü yerin sahibi Oloxan Musayev Paris Yay Paralimpiya Oyunlarına lisenziya əldə ediblər.

## Qaxda eyni anda 100 lövhədə şahmat seansı keçirilib

**Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunan silsilə tədbirlər davam edir.**



Qaxda ilk dəfə şahmat üzrə eyni anda 100 lövhədə seans keçirilib. Seansda Türkan Məmmədyarova, Abdulla Qədimbəyli, Gövhər Beydullayeva və Xanım Balacayeva azyaşlı rəqiblərinə qarşı mübarizə aparıblar.

Azərbaycan Şahmat Federasiyasının təşkil etdiyi seansda qrossmeysterlər cəmi 68 lövhədə qələbə qazanıb, 30 oyun heç-heçə ilə başa çatıb və 2 görüşdə məğlub olublar.

Tədbirin sonunda yeniyetmə şahmatçılara federasiyanın xatirə hədiyyələri təqdim edilib.

Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunan tədbirlər növbəti aylarda Bakıda və digər regionlarda da təşkil olunacaq.

*L.SABİRQIZI, "Xalq qəzeti"*

Texnologiya yenilikləri



## Tarixdə qalan peşələr

**Yuxudan oyadanlar:** Bir zamanlar zəngli saatlar mövcud deyildi. Vaxtında oyanmaq istəyənlər xüsusi adamlara ödəniş edirdilər ki, səhərlər onları tez oyatsın. Onlar da aldıqları pulun müqabilində tezdən gələr, qapı-pəncərəni döyər və ya uca səslə səslənərdilər.

**Buzçular:** Soyuducunun hələ kəşf olunmadığı dövrdə sərinləmək və məhsulların xarab olmaması üçün buz lazım olurdu. Bunun üçün buzçular fəaliyyət göstərirdi. Onlar sifariş olunan ünvana buz çatdırardılar. Lakin bu heç də hər kəs üçün əlçatan olmurdu.

**Telefon operatorları:** Əvvəllər istədiyimiz yerə zəng etmək, kiminləsə telefon əlaqəsi qurmaq üçün əlaqələndirici şəxs yox idi. Bunu yalnız telefon operatorları sayəsində etmək mümkün idi. Bu peşə zamanında xanımlar üçün ən hörmətli iş hesab olunur, onları nəvazişlə "telefonçu qız" adlandırırdılar.

**Oxucular:** Fabrik və zavodlarda fəhlələrin daha yaxşı işləməsi, hadisələrdən məlumatlı olmaları üçün xüsusi işçilər ayrılırdı. Həmin işçilər işləyənlərin ətrafda baş verən olaylardan xəbər tutmaları üçün onlara hər gün qəzet, jurnal və ya kitab oxuyardılar.

*F. SALMANOVA, "Xalq qəzeti"*

## "Təyyarə rejimi" funksiyası yenilənir




**"Təyyarə rejimi" telefonlarda tez-tez istifadə olunan funksiyadır. Bu rejimi aktivləşdirdikdə digər əməliyyatlardan imtina edilir. "Google" isə bunu aradan qaldıraraq "təyyarə rejimi"nə yeni əlavələr edib. Yeni funksiya "Bağlantılı təyyarə rejimi" adlanır.**

Məlumata görə, funksiya cihazdakı sensorlardan istifadə edəcək. Əgər sürət dəyişikliyi, təzyiqin azalması, müxtəlif növ səslər (uçuş mühərrikinin səsi, hündürlük səsi, mayak siqnalları, müxtəlif radio siqnalları və s.) qeydə alınarsa, "Bağlantılı təyyarə rejimi" avtomatik işə düşəcək.

Hazırda telefonlarda "Təyyarə rejimi"ni istifadə etdikdə bütün bağlantılar söndürülür. Ancaq bu yeni rejimdə "Wi-Fi" və "Bluetooth" aktiv olacaq.

Qeyd edək ki, funksiya həm android, həm də iOS modellər üçün nəzərdə tutulub. Lakin nə vaxt istifadəyə veriləcəyi barədə məlumat yoxdur.

*Əfsanə ƏHƏDLİ, "Xalq qəzeti"*

## Mədəniyyət xəbərləri



***Gürcüstanın Gürcü Folkloru və Klassik Musiqi İttifaqının təşkilatçılığı ilə Borjomi şəhərində keçirilən Klassik Musiqi İfaçılarının Beynəlxalq Müsabiqə-Festivalı uğurla başa çatıb.***

ABŞ, Rusiya, Gürcüstan, Polşa, Qazaxıstan və digər ölkələrdən olan iştirakçıların da onlayn formatda qatıldığı beynəlxalq "Harmony" müsabiqəsində ölkəmizi Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) tələbə-müəllim heyəti müxtəlif nominasiyalar üzrə təmsil edib.

Azərbaycan musiqiçiləri müsabiqədə uğur qazanıblar. BMA-nın "Fortepiano" fakültəsinin ikinci kurs tələbəsi Aygül Mahmudova 2-ci yerə, birinci kurs tələbəsi Nuray Əliyeva və üçüncü kurs tələbəsi Zərifə Hasilova isə 3-cü yerə layiq görülüblər.

*

***Bakı Dövlət Universiteti (BDU) ilə Türkiyə Respublikasının Karabük Universiteti arasında anlaşma memorandumu imzalanıb.***

Müqaviləni BDU-nun rektoru Elçin Babayev və Karabük Universitetinin rektoru Refik Polat imzalayıblar. Müqavilə çərçivəsində akademik heyətin, bakalavr, magistr və tədqiqatçıların mübadiləsi nəzərdə tutulur. Bu isə gələcəkdə ikitərəfli münasibətlərin daha da genişləndirilməsini təmin edəcək.

Əsası 2007-ci ildə qoyulmuş Karabük Universitetində 52 min tələbə təhsil alır, müxtəlif ixtisaslar üzrə kadr hazırlığı həyata keçirilir.

*

***Kürdəmir Rayon İcra Hakimiyyətinin və rayonun Gənclər və İdman idarəsinin təşkilatçılığı ilə gənclərin asudə vaxtlarının səmərəli təşkili və hərtərəfli inkişafının təmin edilməsi məqsədilə Kür çayının sahilində Şüşün kəndində yay düşərgəsi təşkil olunub.***



Şüşün kəndinin ən xoş və mənzərəli yerində salınmış düşərgədə keçirilən tədbirlərdə rayon gəncləri ilə bərabər, kəndin fəalları və rayon icra hakimiyyətinin könüllüləri də iştirak ediblər. Gənclər arasında şahmat, dama, domino, voleybol yarışları və turist çadırlarının quraşdırılması oyunu keçirilib. Düşərgənin sonunda gənclərin təşəbbüsü ilə ağaclara quş evləri asılıb, həmin ərazi tullantılardan təmizlənib, düşərgədə fəal iştirak edən gənclərə sertifikatlar təqdim olunub.

*Ə.DOSTƏLİ, "Xalq qəzeti"*

Maraq dünyamız

## Uşaqların sümüyü niyə çoxdur?

**Yeni doğulmuş uşaqlarda, adətən, 270-ə yaxın sümük olur, əksəriyyəti də çox kiçikdir. Bu, skeleti daha çevik edir və körpənin doğum kanalından maneəsiz keçməsinə və sürətlə böyüməsinə kömək edir.**



Yaşlandıqca bu sümüklərin çoxu birləşir. Yetkin bir insanın skeleti, orta hesabla, 200 sümükdən ibarətdir. Bu da onu göstərir ki, uşaqlarda yaşlılardan, təqribən, 70 sümük çoxdur.

## Eyfel qülləsi yayda böyüyür...

**Eyfel qülləsi Parisin rəmzidir. Nəhəng struktur temperatur nəzərə alınmaqla qurulmuşdur, bunun sayəsində polad heç bir zərər vermədən genişlənə və qısala bilir.**



Polad isti havada genişlənməyə başlayır və daha çox həcm alır. Beləliklə, Eyfel qülləsi yayda 15 santimetr böyüyür. Buna istilik genişlənməsi deyilir. Əksinə, temperaturun aşağı düşməsi həcmin azalmasına səbəb olur. Bu səbəbdən körpü kimi böyük strukturlar, dəmir konstruksiyalar isti-soyuq zamanı zədələnmədən ölçülərini dəyişə bilir.

*P.ƏFƏNDİ, "Xalq qəzeti"*

Sağlamlıq

## Təbii ağrıkəsicilər

**Bəzən səbəbini bilmədiyimiz ağrılar bizi narahat edir. Bu narahatlığı ağrıkəsici dərmanlarla aradan qaldırmağa çalışırıq. Unuduruq ki, kimyəvi tərkibli dərmanlar bəzi orqanlara ziyandır. Buna görə də təbii ağrıkəsicilərdən istifadə orqanizm üçün daha məsləhətlidir. Məsələn...**



Razyana.– Mədənizdə və böyrəklərinizdə ağrı varsa, onda razyana kökünü və ya toxumunu dəmləyib yeməkdən əvvəl için. Mütəxəssislər sübut ediblər ki, razyana yalnız ağrıkəsici deyil, həm də müalicəvi xüsusiyyətə malikdir.

Nanə yağı.– Kəskin ağrıları, spazmaşəkilli tutmaları aradan qaldırır. Mədə yanğısına kömək edir. Gün ərzində 6–12 damcı ılıq suda qəbul edilir.

*Zərifə HÜSEYNLİ, "Xalq qəzeti"*

Proqnoz

## Bəzi bölgələrdə qısamüddətli yağış yağacaq



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən iyulun 13-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər yarımadanın bəzi ərazilərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Şimal küləyi əsəcək. Gecə 20-24°, gündüz 28-33° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 762 mm civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 40-50 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz Balakən-Şəki zonasının bəzi şərq rayonlarında qısamüddətli az yağış yağacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 17-22°, gündüz 31-36° , dağlarda gecə 10-15°, gündüz 16-21° isti olacaq.

*Q. QASIMOV, "Xalq qəzeti"*

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektorluğu və professor-müəllim heyəti Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Əli Nağıyevə əzizi

**ZÜLEYXA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Xalq qəzeti"nin kollektivi iş yoldaşları Məsaim Abdullayevə anası

**XAVƏR XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şirvan şəhərindən İlqar Abbasov Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Əli Nağıyevə əzizi

**ZÜLEYXA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4375
SİFARİŞ 1729
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır
00:00